# Xalq qəzeti

Xalqın qəzeti!

№ 15 (30709) 24 yanvar 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Ermənistan hökumətinin irqçi siyasəti qınanılıb



Səhifə ⇨ 8

# Davos zəfəri ənənəsi – dünyanın hesablaşdığı Azərbaycan

## Prezident İlham Əliyevin liderliyi və DİF platforması



**Dünyanın böyük önəm verdiyi Davos İqtisadi Forumunda diqqətin Prezident İlham Əliyevə yönəlməsi ayrıca vurğulanmalı məqamdır. Ötən illərin təcrübəsinə əsasən bu xoş tendensiyaya, necə deyələr, öyrəncəliyik. Hərçənd, Azərbaycanın DİF-də hər iştirakçılığının yeni ovqat yaratdığını da söyləyə bilərik və qətiyyətlə vurğulayaq ki, bu ovqatın müəllifi dövlətimizin başçısıdır.**

Bəli, 130-dan çox ölkədən 350 hökumət nümayəndəsinin, 60 dövlət və hökumət başçısının, həmçinin nüfuzlu biznes strukturlarının, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, media, elm və incəsənət nümayəndələrinin qatıldıqları DİF-də diqqətlər cənab İlham Əliyevdə idi. Dövlətimizin başçısı ilə görüş keçirmək, təmas qurmaq üçün təşəbbüs göstərənlərin sayının çoxluğu belə deməyə əsas verir. Bunun səbəbləri barədə söz açarkən, ilk növbədə, dövlətimizin başçısının şəxsində ölkəmizə etibar amilini vurğulamalıyıq. Nəzərə alaq ki, Prezident İlham Əliyev dünyada sözü ilə əməli eynilik təşkil edən rəhbər kimi tanınır və bu cəhət onun siyasi liderlik keyfiyyətlərindəki başlıca halqanı təşkil edir. Dünya belə bir liderliyə hazırda daha çox ehtiyac duymaqdadır.

Qlobal iqtisadiyyatda yeni artım mənbələrinə ehtiyac, biznes strategiyalarının geoiqtisadi və texnoloji dəyişikliklərə uyğunlaşdırılması zərurəti, beynəlxalq münasibətlər sistemindəki çətinliklər, çətinliklərdəki kataklizm təmayülü, silahlı münaqişələr, qlobal istiləşmə, ümumən iqlim dəyişmələri və nəhayət enerji böhranın formalaşdırdığı durum dünyaya, necə deyərlər, fərqli pəncərədən baxışı qaçılmaza çevirib. Deməli, müasir dövrə, daha doğrusu, dövrün formalaşdırdığı ab-havaya adekvat lider obrazı ilə cavab verilməlidir. Yəni, bu obraz yeni çağırışların ruhunu son dərəcə müfəssəl bilməli, ən başlıcası isə biliyinə strateji mahiyyət qazandırmalı, onu fundamentallaşdırmalıdır. DİF çərçivəsində İlham Əliyev liderliyinə maraq dövlətimizin başçısının məhz bu keyfiyyətlərin daşıyıcısı olması ilə əlaqədardır. Onu da nəzərə alaq ki, ölkəmizin liderinin görüşlərinin say çoxluğu və əhatəliliyi Davos İqtisadi Forumunu ölkəmiz üçün müstəsna platformaya çevirib.

**(ardı 3-cü səhifədə)**

## Türkiyənin kədəri Azərbaycanın da kədəridir

**Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**



Dövlətimizin başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib.

O, bu dəhşətli faciədə həlak olanlara Uca Allahdan rəhmət diləyib və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.

Prezident İlham Əliyev yanvarın 21-də faciə ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə başsağlığı məktubu göndərdiyini də qeyd edib.

Türkiyə Prezidenti diqqətə və başsağlığına görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Türkiyə və Azərbaycan daim bir-birilərinin yanındadırlar, bundan sonra da həmişə belə olacaqdır.

Telefon danışığı əsnasında dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi apardılar.

*Prezidentin Mətbuat Xidməti*

## "Lavrovologiya"nın Rusiya ermənipərəstlərinə təsiri



Səhifə ⇨ 8

## "Böyük manipulyator"




Səhifə ⇨ 6

## Ohanyanın başı dərddə



Səhifə ⇨ 4

## Avropa İttifaqı haylara gəl-gəl desə də...



Səhifə ⇨ 4

# Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti




### Postmüharibə hədəfləri və regional dinamika

"3+3" formatının müharibədən sonrakı məsələlərlə yanaşı, geniş regional dinamikanı əhatə etməsi prinsipial geosiyasi funksiyadır. Bununla Azərbaycan Prezidenti "3+3" formatı ilə dövlətin milli və regional kontekstlərə vahid bucaq altında yanaşdığını ifadə etmişdir. Konkret anlamda Azərbaycan Respublikası təhlükəsizlik və əməkdaşlıq perspektivlərini ölkədaxili inkişafla regional sabitlik, təhlükəsizlik və kommunikativ əlaqələr müstəvisinə proyeksiya etməkdədir.

Nəzəri baxımdan burada müstəqil Cənubi Qafqaz dövlətinin geosiyasi aspektdə milli sərhədləri aşaraq regional miqyasda real geosiyasi oyunçu olmağın fəlsəfəsini ortaya qoyduğunu deyə bilərik. Belə alınır ki, Azərbaycan postmüharibə mərhələsinə geosiyasi kontekstdə regional dinamika prizmasında yanaşmağı özünün strateji məqsədlərindən biri kimi qəbul etmişdir. Yeni tarixi mərhələdə bu cür yanaşma kifayət qədər maraqlı və faydalı görünür. Bütün hallarda həmin aspektdə Azərbaycan yeni bir təcrübə yaradır. Təbii ki, bunu həyata keçirmək asan məsələ deyildir. Çünki qalib dövlətin zəfər fəlsəfəsini bütövlükdə region miqyasında praktiki təcrübəyə çevirməsi yüksək yaradıcı və səmərəli fəaliyyət tələb edir. Bu baxımdan "3+3" formatı həm də strateji mənası olan dinamik bir platformadır. Onun özünü təkmilləşdirmək potensialı yüksəkdir. Bu punktdan konkret olaraq regional inkişaf kontekstinə keçmək olar.

*(ardı 6-cı səhifədə)*

## İqtisadi mərkəz ötən ilin yekunlarını şərh edib



Səhifə ⇨ 7

## Avropa "sağ qalmaq" üçün silahlanmalıdırmı?



Səhifə ⇨ 11

## Parisin keyfiyyətsiz medalları – kimdir müqəssir?



Səhifə ⇨ 9

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1073-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262, № 7, maddə 826) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin 17-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütunu aşağıdakı redaksiyada verilsin:

"17. Dövlət müdafiə sifarişi planlarını (tapşırıqlarını), silah, hərbi texnika və digər hərbi məhsulların buraxılmasını və göndərilməsini (pul və ya natura ifadəsində), istehsal həcmini, onların buraxılışının istehsal gücünü açıqlayan məlumatlar. Müəssisələr (istehsalçı) tərəfindən silah, hərbi texnika və digər hərbi məhsulların işlənib hazırlanması, istehsalı (istehsalının dislokasiyası), ixracı, satışı, habelə onların istehsalının, ixracının, satışının təşkili barədə, eləcə də həmin müəssisələrin (istehsalçının) qeyd olunanlarla bağlı kooperasiya üzrə əlaqələri və onların maliyyə hesabatları haqqında məlumatlar".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

---

## "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1226 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanı) 5-ci hissəsində "202" rəqəmləri "212" rəqəmləri ilə, "867" rəqəmləri "926" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

---

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 48-ci hissəsinin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 49-cu hissə əlavə edilsin:

"49. Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti.".

**2.** Bu Fərman 2024-cü il sentyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

---

## Azərbaycan Respublikası Prezidentinin "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli, "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2024-cü il 1 aprel tarixli 25 nömrəli və "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2024-cü il 10 iyul tarixli 134 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.16-1 – 3.1.16-3-cü və 4.7.7-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.16-1. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə tələbatının ödənilməsini təmin etmək;

3.1.16-2. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqq daxil olmaqla, yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq almaq;

3.1.16-3. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətləri göstərmək və bu xidmətlərə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq almaq (o cümlədən bu Nizamnamənin 3.1.16-1-ci yarımbəndində göstərilən hallarda);";

"4.7.7-1. bu Nizamnamənin 3.1.16-2-ci və 3.1.16-3-cü yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 745 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 746 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**4.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 343, № 7, maddə 794) ilə təsdiq edilmiş "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**5.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 25 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 372) ilə təsdiq edilmiş "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**6.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 793) ilə təsdiq edilmiş "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

**7.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

---

# Türkiyə və Belarus səfirlərinin ölkəmizdə fəaliyyəti başa çatıb



**Dünən xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**

Nazir Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə Respublikasına bir daha başsağlığı verib, dəhşətli hadisə nəticəsində vəfat edənlərə Allahdan rəhmət, yaralananlara şəfa arzulayıb, Azərbaycanın hər zaman Türkiyə dövləti və xalqının yanında olduğunu vurğulayıb. Ölkəmizdə səmərəli diplomatik fəaliyyətinə, Azərbaycan–Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyinə verdiyi töhfələrə görə səfir Cahit Bağçıya təşəkkür edən nazir ona gələcək fəaliyyətində uğurlar arzu edib.

Cahit Bağçı Türkiyənin qardaş Azərbaycanda səfiri kimi fəaliyyətini hər zaman qürurla xatırlayacağını diqqətə çatdıraraq, göstərilən dəstəyə görə təşəkkür edib, bundan sonra da Azərbaycan –Türkiyə qardaşlıq və müttəfiqliyinə əlindən gələn töhfənin verilməsinə hazır olduğunu bildirib.

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının ölkəmizdəki səfiri Andrey Ravkovu da Azərbaycandakı diplomatik fəaliyyətini başa vurması münasibətilə qəbul edib.**



Nazir Andrey Ravkova Belarusun Azərbaycandakı səfiri olduğu dövrdə səmərəli fəaliyyətinə görə təşəkkür edib, ona gələcək işlərində uğurlar arzu edib. O, iki ölkə arasında mövcud strateji tərəfdaşlığın inkişafında ali və yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlər və beynəlxalq platformalar çərçivəsində fikir mübadilələrinin əhəmiyyəti vurğulayıb. Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Andrey Ravkov ölkəmizdə fəaliyyət göstərdiyi müddətdə qarşılıqlı faydalı əməkdaşlıq və dəstəyə görə təşəkkür edib, Azərbaycan-Belarus strateji tərəfdaşlığının bundan sonra da yüksələn xətt üzrə inkişafına əminliyini ifadə edib.

***XQ***

---

# Azərbaycan – Pakistan Birgə Komissiyasının növbəti sessiyası

**İslamabadda Azərbaycan və Pakistan arasında Birgə Komissiyanın 8-ci sessiyası işə başlayıb.**



Müzakirələrin ilk günü enerji, nəqliyyat, ticarət-iqtisadi əməkdaşlıq, müdafiə sənayesi, İKT və rəqəmsal idarəetmə, bankçılıq, turizm, idman, gənclər, mədəniyyət, təhsil və elm, səhiyyə, hidrometeorologiya, iqlim dəyişikliyi, dövlət xidmətlərinin göstərilməsi və sosial innovasiyalar, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi daxil olmaqla, müxtəlif sektorlar üzrə məsələlər nəzərdən keçirilib. İkitərəfli protokolların yekunlaşdırılması üçün mühüm irəliləyiş əldə edilmiş qarşılıqlı əməkdaşlıq sahələri müzakirə edilib.

Pakistanın İqtisadi İşlər Nazirliyinin katibi Səbinə Qureşi Pakistan və Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsində Birgə Komissiyanın əhəmiyyətli olduğunu vurğulayıb.

***XQ***

24 yanvar 2025-ci il, cümə





# Azərbaycan qlobal iqtisadi çağırışların da önündə gedir

*Davos Forumu ölkəmizin dünyaya daha geniş inteqrasiyasına meydan açır*

**Əsası 1971-ci ildə isveçrəli professor Klaus Şvab tərəfindən qoyulan və qərargahı Cenevrədə yerləşən Davos İqtisadi Forumu (DİF) dünyada ən böyük beynəlxalq qeyri-hökumət təşkilatıdır. Müxtəlif ölkələrin prezidentləri, baş nazirləri, iş adamları, eləcə də dünyanın tanınmış şəxsləri üçün DİF dialoq və əməkdaşlıq tribunası rolunu oynayır.**

Forumda qəbul edilən qərarlar tövsiyə xarakteri daşıyır. Burada beynəlxalq aləmdə ciddi narahatlıq doğuran məsələlər, müxtəlif ölkələrdən investisiyaların cəlb olunması, iqtisadi vəziyyət, ayrı-ayrı dövlətlərin potensialı kimi ümumbəşəri məsələlər müzakirə olunur.

Qlobal vəziyyətin iqtisadi inkişaf və sosial tərəqqi məsələlərinin həllində dünya birliyinə kömək göstərmək yolu ilə yaxşılaşdırılması DİF-in başlıca məqsədi elan edilib. Buna görə də indiyədək keçirilən forumlar qlobal inkişafın mühüm problemlərinin müzakirəsində, dünya birliyinin işgüzar, siyasi, intellektual liderləri arasında tərəfdaşlığın inkişafında önəmli rol oynayıb.

Prezident İlham Əliyev iştirak etdiyi forumlarda bir qayda olaraq dünyanın aparıcı iş adamları ilə görüşür, ünsiyyət qurur, onlarda ölkəmizin iqtisadi imkanları barədə aydın, obyektiv təsəvvür yaradır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələri dünyaya çatdırılır. Bunun nəticəsində isə ölkəmizə investisiya qoyuluşu, yeni texnologiyaların gətirilməsi prosesi sürətlənir.

Azərbaycan Prezidenti İlham Əliyevin builki DİF çərçivəsində keçirdiyi görüşlərdə ölkəmizin regionda həlledici mövqeyə malik aparıcı dövlət kimi tanınması xüsusi vurğulanıb. Respublikamızın vaxtilə xarici yardımlara, investisiyalara ehtiyacı olan ölkədən sərmayə ixracatçısına çevrilməsi diqqətə çatdırılıb. Bildirilib ki, son illər dövlətimiz qarşıya qoyulan bir çox vəzifələrin həllinə nail olub, respublikamızın regional və qlobal əhəmiyyəti, etimad səviyyəsi xeyli yüksəlib, regional və qlobal enerji təhlükəsizliyi sahəsində mövqelərimiz, milli iqtisadiyyatımızın rəqabətədavamlı xarakteri güclənib, əhalinin sosial rifahı nəzərəçarpacaq səviyyədə yaxşılaşıb.

Yuxarıdakı fikrin təsdiqi olaraq bəzi məqamlara nəzər salaq. Prezident İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb. Henrik Poulsen rəhbərlik etdiyi şirkətin respublikamızda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını ifadə edib, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək yaradılmış şəraitə görə dövlətimizin başçısına təşəkkürünü bildirib.

Xatırladaq ki, respublikamızda yaradılan əlverişli biznes və investisiya mühiti bir çox xarici investorları ölkəmizə cəlb edir, iqtisadiyyatın müxtəlif sahələrində önəmli layihələr icra olunur, yeni iş yerləri yaradılır. Son bir neçə ildir ki, milli iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.




Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsində 1995-ci il yanvarın 13-də qəbul edilən "İnvestisiya fəaliyyəti haqqında" Qanun mühüm önəm daşıyır. Bu sənəd investisiyaların iqtisadiyyata cəlbini stimullaşdırmaqla bərabər, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. "Xarici investisiyaların qorunması haqqında" Qanun da sərmayədarların hüquq və mənafelərinin qorunmasını, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılmasını şərtləndirir.

Bu və digər tədbirlər nəticəsində son 20 ildə Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox xarici investisiya yatırılıb. Belə bir göstərici isə ölkəmizdə mövcud olan davamlı makroiqtisadi və maliyyə sabitliyi nəticəsində əldə edilən daxili və xarici investisiya fəallığını şərtləndirib. Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırıb. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalaması da iqtisadiyyata yatırılan daxili və xarici investisiya həcminin artırılmasını sürətləndirib.

Prezident İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşündə "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulanıb, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Yeri gəlmişkən, beynəlxalq reytinq agentliklərinin hesabatlarında qarşıdakı illərdə Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində mövqeyinin daha da möhkəmlənəcəyi, Avrasiyada əsas nəqliyyat qovşağı kimi nüfuzunun güclənəcəyi qeyd edilib.

Prezident İlham Əliyev çıxışlarının birində Şimal – Cənub Nəqliyyat Dəhlizinin fəaliyyətinə də toxunaraq qeyd edib ki, Azərbaycanın bu qovşaqda yerləşməsi, həqiqətən, coğrafi lütfdür ki, hər iki yol, yəni Orta və Şimal–Cənub dəhlizləri respublikamızdan keçir: "Bizim Rusiya və İran sərhədi ilə birləşdirən dəmir yolu infrastrukturumuz var. Tezliklə biz yeni dəmir yolu infrastrukturunu inşa etməyə başlayacağıq, çünki təkcə Rusiyadan Fars körfəzinə azı 15 milyon ton yükün gəlməyini gözləyirik. Əgər biz əks istiqamətdən yük əlavə etsək, düşünürəm ki, 15 milyon ton, sadəcə, başlanğıcdır. Hazırda bizim Şimal – Cənub dəmir yolumuzun Azərbaycan seqmenti 6–7 milyon ton yük qəbul edə bilir ki, bu, bizim üçün və tranzitorlar üçün yetərlidir".

Beləliklə, ölkə rəhbərinin çıxışında vurğulandığı kimi, faktiki olaraq hazırda infrastrukturun Rusiya sərhədindən Bakıya qədər olan hissəsi artıq yenidən qurulur. Eyni zamanda, Bakıdan İran sərhədinə qədər olan hissənin yenidən qurulmasına da ehtiyac var. Lakin bu yollar iki ayrı yol olmayacaq, çünki bu, yüklərin Cənubdan Qərbə və ya Şimaldan Qərbə daşınmasına imkan verəcək. Mövcud infrastrukturdan istifadə etməklə bu, artıq indi baş verir. Yeni infrastrukturla isə həcm daha böyük olacaq və əlbəttə ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artıracaq və heç şübhəsiz, ölkəmizə əlavə maddi mənfəət qazandıracaq.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə bu nəqliyyat dəhlizlərindən səmərəli istifadə edilib. Respublikamızın ərazisindən keçən yolların çoxşaxəli olması ölkəmizin imkanlarını böyük dərəcədə artırıb. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, Şimal–Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz yüksəlib.

Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin iştirakçıları arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadi cəhətdən ən optimal marşrutdur. Marşrutun yük bazasını Hindistan və Körfəz ölkələrinin Rusiya, Skandinaviya bölgəsi və Şimali Avropa ölkələri ilə ticarəti təşkil edir.

Göründüyü kimi, Prezident İlham Əliyevin Davosda bir sıra dövlət başçıları, nəhəng şirkətlərin rəhbərləri ilə keçirdiyi görüşlərdə də bu fikir bir daha öz təsdiqini tapıb. Dövlətimizin başçısı Davosdan özünün sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirib: "Bizim xarici ölkələrlə münasibətlərimiz yalnız qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulur. Siyasi gücündən, yaxud da ki, böyüklüyündən, ərazilərindən asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qura bilmişik".

Belə bir münasibətin mövcudluğu isə dünyada yaranan iqtisadi problemlərin birgə aradan qaldırılmasına nail olmağı, yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməyi gerçəkləşdirir. Şübhəsiz ki, Azərbaycan da bu platformadan maksimum faydalanır.

***XQ***

## Ekspert rəyi



**Ramil HÜSEYN,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi icraçı direktorunun müavini**

Davosda keçirilən Dünya İqtisadi Forumunun 55-ci iclasının gündəliyində iqlim dəyişikliyi, enerji keçidi və karbon ticarəti əsas müzakirə mövzularındandır. Azərbaycan nümayəndələri də "Liderlər Dairəsi: Enerji Keçidinin Maliyyələşdirilməsi – Yeni Üfüq" sessiyasında ölkəmizin uğurlu enerji transformasiyasından danışıb, enerji keçidinin maliyyələşdirilməsi barədə fikir mübadiləsi ediblər.

"Karbon qiymətlərini necə effektiv etmək olar?" mövzusunda keçirilən müzakirələrlə bağlı qeyd edim ki, iqlim dəyişikliyi ilə mübarizədə dövlətlərlə yanaşı, özəl sektorun da rolunun artırılması zəruridir. Davos zirvəsində hökumət və vətəndaş cəmiyyəti nümayəndələrinin, həmçinin qlobal biznesdə əsas paya sahib olan şirkət rəhbərlərinin iştirakı birgə fəaliyyət üçün əlverişli fürsətdir.

Ötən il Bakıda təşkil olunan COP29-un ilk günündə karbon kreditlərinin yaradılması standartları üzrə əldə edilən konsensusun əhəmiyyəti Davosda da vurğulanıb. Bildiyimiz kimi, hazırda qlobal miqyasda müxtəlif alətlərdən istifadə etməklə istixana qazı emissiyalarının azaldılması təşviq edilir. Bu baxımdan karbon ticarətinin də iqlim dəyişikliyi ilə mübarizəyə xidmət edəcəyi gözlənilir. Hesablamalara görə, bu bazarın uğurla fəaliyyət göstərməsi ildə 5 milyard ton karbon emissiyasının azalmasına töhfə verə bilər. Bu isə iqlim dəyişikliyi ilə mübarizə baxımından çox mühüm göstəricidir.

2015-ci ildə imzalanan Paris Sazişinin 6-cı maddəsində karbon ticarəti ilə bağlı məsələ əksini tapsa da, ötən müddətdə bu sahədə qeyri-müəyyənliklər mövcud olub. Bakıda keçirilən COP29 isə qlobal karbon krediti bazarının fəaliyyətə başlaması baxımından çox mühüm bir mərhələ kimi tarixə düşdü. Razılaşdırılan qaydalar karbon ticarətində şəffaflığı, etibarlılığı artıracaq, kreditlərin iki dəfə hesaba alınmasının qarşısını alacaq.

Ümumiyyətlə, Bakıda əldə olunan razılığın karbon ticarətində dönüş yaradacağı proqnozlaşdırılır. Gözlənilir ki, növbəti 5 ildə BMT tərəfindən dəstəklənən karbon kreditləri bazarı inkişaf edəcək. Hətta ilkin səslənən ehtimallara görə, 2030-cu ilə kimi bu sahədə 250 milyard ABŞ dollar həcmində gəlir əldə oluna bilər.

Azərbaycanın qlobal istixana qazı emissiyalarında payı cəmi 0,1 faizdir. Karbon ticarətində əsas rolu isə qlobal istixana qazı emissiyalarında mühüm paya sahib olan dövlətlər oynayacaq. Amma bu sahənin inkişafı istiqamətində konsensusun əldə olunmasında Azərbaycanın rolu təqdirəlayiqdir. Bu, bir daha COP29-un nəticələrinin uğurlu olduğunu göstərir.

# Davos zəfəri ənənəsi – dünyanın hesablaşdığı Azərbaycan

**(əvvəli 1-ci səhifədə)**

Bəli, Prezident İlham Əliyev dünyanı düşündürən məsələlərin həllinə Azərbaycan nəfəsi gətirməyi bacaran liderdir. Bu nəfəsdə ölkəmizin milli maraqlarının qorunması ön plandadır və dünya çox yaxşı dərk edir ki, müstəqil siyasət xəttimizdə milli mənafe amili ön plandadır. Dövlətimizin başçısının maraq və mənafelərimizin müdafiəsi əzmi Azərbaycanı beynəlxalq aləmə bərabərhüquqlu tərəf qismində təqdim edir. Elə bir tərəf ki, qarşılıqlı əməkdaşlıqdan həm fayda götürür, həm də əməkdaşlığı müştərək fayda ilə zənginləşdirir. İlham Əliyev liderliyi faydanın təminat faktorudur, onun sözü konkret qarantiyadır.

Prezident İlham Əliyevin təklif etdiyi fayda formulları rasional düşüncənin məhsulu olmaqla uzunmüddətlidir, geniş məqsədləri hədəf seçir. Müasir dünya üçün bu, son dərəcə vacib amildir. Məsələ ondadır ki, hazırda bir çox münaqişə və ziddiyyətlərin kökündə maraq və mənafelərin uzlaşdırılmaması, onların reallaşması yolundakı parametrlərin düzgün seçilməməsi dayanır. Dövlətimizin başçısının erudik təfəkkürü, proqmatik düşüncə tərzi belə maneələrin aşılması üçün əngəl tanımır. Hesab edirik ki, dünyada da bunu çox gözəl anlayırlar və ona görə də Azərbaycanın DİF-ə gətirdiyi xüsusi nəfəsin hənirtisi ilə qızınmaq istəyənlər çoxdur və zaman göstərir ki, onların sayı ildən-ilə artır.




İlham Əliyev liderliyi DİF-i Azərbaycan üçün dünyaya ədalət ixracı baxımından da mühüm platformaya çevirib. Məlum olduğu kimi, ölkəmiz müstəqillik qazanandan bu yana ədalətsizliyin ikili standartlar, qeyri-bərabərlik kimi təzahürlərinə qarşı mübarizə aparıb. Ən əsası isə Azərbaycan məhz ədalətsizliklə mücadilə zəminində hazırkı yüksək inkişaf modelinə sahiblənməyi bacarıb. Dünyada da bu məqamı çox yaxşı bilirlər. Baxın, Prezident İlham Əliyevlə görüşə, təmasa can atan nüfuzlu şəxslərin bir çoxunun təmsil olunduqları ölkələr vaxtilə Azərbaycana qarşı qeyri-ordinar fəaliyyətə üstünlük verənlərdir. O ölkələr ki, hazırda dövlətimizin başçısının səyləri ilə formalaşmış ədalət ənənəsinin konseptuallığını hiss edirlər. Onlar Azərbaycanın tətbiq etdiyi model ilə barışırlar. Çünki bu model optimaldır, alternativsizdir.

Hazırkı Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir. Müstəqillik illərində ölkəmizin yaşadığımız bu mürəkkəb tarixi-coğrafi məkanda oynadığı rol müstəsna əhəmiyyətə malikdir və liderliyi doğuran da məhz həmin roldur. Bunun əsası isə 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması ilə qoyulub.

Ümummilli lider formalaşdırdığı əməkdaşlıq ənənəsi ilə tarixən Rusiya ilə əlaqəli olan regionun qapılarını dünyaya açdı. İlham Əliyevin liderliyi nəticəsində isə Azərbaycan regionun həm qapısına, həm də açarına çevrilməyi bacardı. Hesab edirik ki, dünya bu həqiqəti də dərk edir. Həqiqəti inkar yolu tutanlar olsa da, dövlətimizin başçısının artıq ənənəyə çevrilmiş Davos zəfərləri dünyada ölkəmizin regionun lideri obrazını möhkəmləndirməklə yanaşı, beynəlxalq aləmin anti-Azərbaycan ritorikasına da ağır zərbə vurur. Bu isə o deməkdir ki, Prezident İlham Əliyev ölkəmizin liderliyinə kənar təsirləri özündən uzaqlaşdırma müqaviməti qazandırıb.

Bəli, Azərbaycanın xarici təsirlərə qarşı müqavimət potensialının mövcudluğu ölkəmizi hesablaşılan mərkəzə çevirib. DİF çərçivəsində dövlətimizin başçısının nüfuzunu şərtləndirən amillərdən biri də məhz budur. Ümumən, ölkəmizin liderinin DİF müstəvisində reallaşdırdığı fəaliyyət onu göstərir ki, Azərbaycan bu platformaya həm iqtisadi, həm də siyasi cəhətdən yanaşır. Belə yanaşma dövrün tələbidir. Çünki dəyişən dünya reallıqları fonunda iqtisadi amillərin siyasi amillər naminə təsir vasitəsinə çevrildiyini görürük. Mövcud tendensiyanın hökm sürdüyü hazırkı dünya düzənində ayaqda qalmaq, iqtisadiyyatın rəqabətyönümlülük qabiliyyətini artırmaq, eyni zamanda, siyasi səhnədə də müstəsna yaşam meyarı sayılır. Prezident İlham Əliyev Azərbaycanı hər iki cəhətdən möhkəmləndirməyi və gücləndirməyi bacarıb. Bacarığın təntənəsi 44 günlük müharibədə əldə etdiyimiz Zəfər idi. Dünya zəfərimizi, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdiyimizi gördü. Heç şübhəsiz, bu məqam beynəlxalq aləmin nəbzinin döyündüyü DİF-də də müşahidə edildi. Müəyyən mənada klişeləşmiş, ancaq günümüzlə səsləşən bir ifadə var ki, dünya gücün hökmranlığına tabedir. Nə böyük xoşbəxtlik ki, bu gün xarici aləmin nəzərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi güclü Azərbaycan var.

***XQ-nin analitik qrupu***

# Ohanyanın başı dərddə

**2008-2016-cı illərdə Ermənistanın müdafiə naziri olmuş Seyran Ohanyanın başı dərddədir. Hazırda ölkə parlamentindəki müxalifətçi "Hayastan" fraksiyasına rəhbərlik edən S.Ohanyana qarşı Ermənistan baş prokurorluğu yeni ittiham irəli sürüb. Bu barədə ölkənin korrupsiyaya qarşı mübarizə məhkəməsində keçirilən məhkəmə iclasında məlumat verilib.**



Bundan əvvəl kassasiya məhkəməsi Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın və onun tabeliyində olan şəxslərin hələ də qanuni qüvvəyə minməmiş bəraət hökmünü ləğv edərək, işi yeni məhkəmə baxışı üçün korrupsiyaya qarşı mübarizə məhkəməsinə göndərib. Dünən korrupsiyaya qarşı mübarizə məhkəməsində bu iş üzrə dinləmələr keçirilib. Yeni ittiham 2008-ci il martın 1-də baş vermiş iğtişaşlarla bağlıdır. Prokurorlardan birinin dediyi kimi, Ohanyan vəzifə səlahiyyətlərini aşmaqla ehtiyatsızlıq nəticəsində ağır nəticələrə səbəb olan güc tətbiq etməkdə ittiham olunur. Bu maddə 4 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetməni nəzərdə tutur.

Qeyd edək ki, R.Koçaryan, S.Ohanyan, həmçinin Ermənistan silahlı qüvvələri baş qərargahının keçmiş rəisi Yuri Xaçaturov və baş nazirin keçmiş müavini Armen Gevorkyan konstitusiya quruluşunu devirməyə cəhddə (Ermənistan Cinayət Məcəlləsinin 300.1-ci maddəsi) ittiham olunublar. 2021-ci ilin martında konstitusiya məhkəməsi bu maddəni əsas qanuna zidd hesab edib və işə xitam verilib. Ancaq proses 2024-cü ilin sentyabrında bərpa edilib. Prokurorlar Koçaryan və Xaçaturovun hərəkətlərini yenidən tövsif edib və səhlənkarlıq nəticəsində ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə ittihamı irəli sürüblər. İttiham Ermənistan Cinayət Məcəlləsinin 441-ci maddəsinin ikinci hissəsinin beşinci bəndinə uyğundur. İttihamlar 2008-ci il martın 1-də baş vermiş prezident seçkilərindən sonra Levon Ter-Petrosyanın rəhbərlik etdiyi müxalifətin səsvermənin nəticələrinə qarşı etiraz aksiyaları keçirdiyi zaman baş vermiş hadisələrlə bağlıdır. Etirazlar İrəvanda iğtişaşlara çevrilib, nəticədə rəsmi məlumata görə, 10 nəfər həyatını itirib.

Qeyd edək ki, S.Ohanyan Azərbaycan xalqına qarşı törətdiyi əməllər səbəbindən ölkəmizə yaxşı tanışdır. 1962-ci ildə Şuşada doğulub. Atası Ermənistanın Gorus şəhərindən, anası isə Şuşa rayonunun Daşaltı kəndindəndir. Virtual ensiklopediya – "Vikipediya"-da S.Ohanyanla bağlı məqalədə qeyd edilib ki, onun dünyaya gəlməsindən bir neçə il sonra ailə ermənilərin yaşadığı Azərbaycanın Şəmkir rayonunun Atabəy kəndinə köçüb. O, 1979-1983-cü illərdə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandandirləri Məktəbində hərbi təhsil alıb.

S.Ohanyan sonradan nankor çıxıb. Azərbaycanın, necə deyərlər, çörəyini yeyib, suyunu içməsinə baxmayaraq, 1980-ci illərin sonlarında Qarabağın dağlıq hissəsində erməni separatçılarının başladıqları hərəkatın tərəfində dayanıb. Nəinki dayanıb, onun aktiv iştirakçısı olub. O, keçmiş sovet ordusunun Xankəndidə dislokasiya olunmuş 366-cı motoatıcı alayının ikinci motoatıcı taborunun komandiri kimi mayor rütbəsində 1992-ci ilin fevralında Xocalı soyqırımının törədilməsində iştirak edib. Daha sonra – may ayında Şuşaya dörd istiqamətdən hücuma keçən dəstələrdən birinin komandiri olub. Sonra isə keçmiş qondarma rejimin və Ermənistanın işğalçı ordusunda müxtəlif vəzifələrdə işləyib. 1999-2007-ci illərdə separatçı rejim ordusunun başçısı, 2007-ci ildən etibarən Hayastan silahlı qüvvələrinin baş qərargah rəisi və müdafiə nazirinin birinci müavini olub. 2008-ci ildə isə Serj Sarkisyan onu müdafiə naziri təyin edib və Ohanyan 8 il bu vəzifəni daşıyıb. Yeri gəlmişkən, qeyd edək ki, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Ohanyan dörd il idi vəzifəsindən uzaqlaşdırılmışdı. Onun mənsub olduğu düşərgə, yəni Qarabağ klanı isə cəmi iki il idi ki, siyasi səhnədən, necə deyərlər, süpürülüb atılmışdı. Yəni, Azərbaycanın məğlub etdiyi S.Sarkisyanın, R.Koçaryanın və elə S.Ohanyanın ordusu idi.

Qarabağda qanunsuz separatçı rejim yaradaraq Azərbaycan xalqına və dövlətinə qarşı müxtəlif cinayətlər törətməkdə təqsirləndirilən bir qrup şəxs hazırda Bakıda mühakimə olunurlar. Onlarla birgə eyni əməllərə yol vermiş R.Koçaryan, S.Ohanyan və digərləri isə İrəvanda başqa iş üzrə, necə deyərlər, məhşər ayağına çəkilirlər. Klanın digər üzvü S.Sarkisyanın da işi məhkəmələrdədir. Zənnimizcə, bütün bunlar ilahi ədalətin təntənəsi kimi qiymətləndirilməlidir.

Onu da bildirək ki, S.Ohanyan İkinci Qarabağ müharibəsində də iştirak edib. O, əvvəlcə birbaşa ordu sıralarında könüllü, sonra isə keçmiş separatçı rejimin başçısı Arayik Arutyunyanın "müşaviri" kimi olub. 2020-ci il noyabrın əvvəlində Şuşa uğrunda gedən döyüşlərdə ordu komandirlərindən biri olan Ohanyanın bəxti son anda gətirmiş, Azərbaycan Ordusunun yaxınlaşdığını görən kimi qaçıb aradan çıxmağa nail olmuşdu. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın məğlub etdiyi ordu, əslində, Sarkisyan-Koçaryan cütlüyünün ordusudur. Bu orduya bilavasitə rəhbərliyi isə 8 il ərzində S.Ohanyan həyata keçirib.

Bu istiqamətdə Prezident İlham Əliyev də fikirlərini bildirib. 2021-ci il avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağını ucaltdıqdan sonra etdiyi çıxışı zamanı Prezident İlham Əliyev demişdi: "Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, 30 il ərzində ermənilər "hərbi qələbə" ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyduq".

Dövlətimizin başçısı qeyd etmişdi ki, növbəti mif onların "sərkərdələri" ilə bağlı idi: "Guya, Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, "tuşenka" satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər. Xocalı cəlladları Koçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə! Siz fərarisiniz, qorxaqsınız! Biz sizi məhv etmişik! Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı".

Əlbəttə, hər kəsə aydındır ki, Prezident İlham Əliyev "Şuşadan güclə canını qurtaran keçmiş müdafiə naziri" deyərkən S.Ohanyanı nəzərdə tutur. Həmin Ohanyan ki, bu gün öz əməllərinə görə haqq-hesab məqamındadır.

Prosesin digər məqamı isə Ermənistan hakimiyyətinin bu kimi məhkəmə prosesləri vasitəsilə Qarabağ klanı üçün problemlər yaratmaq istəyi ilə bağlıdır. Gələn il ölkədə növbəti parlament seçkiləri keçiriləcək. Bu seçkiyə həm iqtidar, həm də müxalifət ciddi şəkildə hazırlaşır. Güman etmək olar ki, Nikol Paşinyan iqtidarı bu prosesi təşkil etməklə müxalifətin gücünü zəiflətmək, həmin düşərgənin diqqətini seçkilərdən yayındırmaq məqsədi daşıyır.

Məsələ ilə bağlı XQ-yə açıqlama verən **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əməkdaşı, hərbi-siyasi ekspert Fuad Abdullayev** bildirdi ki, Ermənistanda keçiriləcək növbəti parlament seçkilərinə təqribən il yarım qalmasına baxmayaraq, hakimiyyətin 2024-cü ilin ikinci yarısından etibarən seçkiqabağı prosesə başladığını qeyd etmək olar. Onun sözlərinə görə, Ermənistanın daxili ictimai-siyasi həyatında baş verən proseslərin müşahidəsi belə deməyə əsas verir: "Paşinyan hakimiyyəti hazırlıq prosesi çərçivəsində maksimum dərəcədə inzibati resurslardan istifadə etmək istəyir və görünən odur ki, bunu fəal şəkildə edir. Ümumiyyətlə, hakimiyyətin seçkiqabağı fəaliyyətini bir neçə istiqamətdə apardığını qeyd etmək mümkündür. Bura, həmçinin 2008-ci il martın 1-də baş verən hadisələrlə bağlı keçmiş prezident Robert Koçaryan, sabiq müdafiə naziri Seyran Ohanyan və sabiq baş qərargah rəisi Yuri Xaçaturov barəsində verilən qərarın Ermənistan kassasiya məhkəməsi tərəfindən ləğv edilməsi, həmin şəxslərin yenidən istintaqa cəlb olunması, eləcə də hökumətin tərkibində baş verən kadr islahatları, iqtidar partiyasının reytinqi aşağı olan şəhər və rayonlara yeni kadrların təyin olunması və hakimiyyətə müxalif mövqedə olan vilayət rəhbərlərinə qarşı həyata keçirilən tədbirlər daxildir".

Müsahibimiz qeyd etdi ki, bunlara paralel olaraq, 2024-cü il oktyabrın 10-da Ermənistan parlamentinə ölkənin Seçki Məcəlləsinə əlavə və dəyişiklik edilməsini nəzərdə tutan qanun layihəsi daxil olub: "Layihə Ermənistan mətbuatında narahatlıqla qarşılanıb və hakimiyyətin seçkidə qalib gəlməsi istiqamətində atdığı addım kimi qiymətləndirilib. Təxminən 80 maddəsinə dəyişiklik və əlavə ediləcək yeni Seçki Məcəlləsinin 2025-ci ildən qüvvəyə minəcəyi bildirilir. Müəyyən edilib ki, Seçki Məcəlləsinə edilməsi nəzərdə tutulan dəyişiklik və əlavələr vasitəsilə hakimiyyət maliyyə nəzarətini öz əlində mərkəzləşdirmək, habelə mənşəyi bilinməyən maliyyə vəsaitlərinin seçki proseslərinə daxil olmasının qarşısını almaq üçün imkan əldə etmiş olacaq. Təklif olunan dəyişikliklərə əsasən, seçki fonduna pul köçürmələrini yalnız siyasi partiyalar həyata keçirə biləcək.



Əvvəllər isə istənilən fiziki şəxs seçki fonduna ianə verə bilirdi".

Bununla yanaşı, F.Abdullayev hesab edir ki, özünü müxalifət kimi göstərən, lakin hökumətin Qərbyönümlü siyasətinə dəstək verən və demokratik qüvvələrin platformasına daxil olan 4 siyasi partiyanın rəhbərinin Ermənistanın Avropa İttifaqına üzv olması üçün ölkədə referendum keçirilməsi təşəbbüsünü də seçkiqabağı prosesin bir parçası hesab etmək olar. Onun fikrincə, "Mülki müqavilə" partiyasının reytinqinin aşağı olması səbəbindən hakimiyyət seçkilərə qədər əlində olan inzibati resurslardan istifadə etməyə və vəziyyəti öz xeyrinə dəyişmək üçün tədbirlər görməyə davam edəcək. İstisna edilmir ki, iqtidar 2025-ci ilin birinci rübünədək seçki platformasını müəyyən edəcək və onu ictimaiyyətə açıqlayacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Avropa İttifaqı haylara gəl-gəl desə də…

**Bu utopik arzusunun gerçəkləşəcəyinə heç Paşinyanın özü də inanmır. Söhbət Ermənistan baş nazirinin Avropa İttifaqına üzv olmaq sevdasından gedir. "Vətəndaş cəmiyyəti təşəbbüs irəli sürdü, hökumətimiz bu qanun layihəsini təsdiqlədi və parlamentimizin onu qəbul edəcəyi ehtimalı yüksəkdir. Bu, o deməkdir ki, biz Avropa İttifaqı ilə inteqrasiya prosesinə başlayırıq". Bu sözləri Ermənistan baş naziri Nikol Paşinyan Davosda Dünya İqtisadi Forumu çərçivəsində panel müzakirəsində deyib. Bundan əlavə, o, Ermənistan və Aİ arasında viza rejiminin liberallaşdırılması üzrə danışıqların tezliklə başa çatacağına və müvafiq sazişin imzalanacağına ümid etdiyini bildirib.**

Oxuculara xatırladaq ki, yanvarın 9-da Ermənistan hökuməti ölkənin Aİ-yə üzvlüyü haqqında qanun layihəsini təsdiqləyib. Hayların baş nazirinin sözlərinə görə, ölkənin Aİ-yə üzvlüyü ilə bağlı qərar ümumxalq referendumu yolu ilə qəbul edilməlidir. İntəhası, Aİ-nin özündə hələ heç kim Ermənistanı bu quruma dəvət etməyib. Brüssel, sadəcə, "yaxınlaşma" təklifini irəli sürüb.Yəni, İrəvan dəvət olunmadığı məclisə yola düşməyə hazırlaşır, Qərb isə onunla oynamağın yeni üsullarını sınaqdan çıxarır. Aydın məsələdir ki, Qərbin xristian düşərgəsi Ermənistanı Ukrayna aqibətinə doğru sürükləyir və ondan Rusiya və İrana qarşı "maşa" kimi istifadə etmək məqsədini güdür.



"Ana Ermənistan" hərəkatının lideri, politoloq Andranik Tevanyanın fikrincə, Paşinyan, əslində, Aİ-yə qoşulmağın qeyri-mümkün olduğunu anlayır, amma reytinqini saxlamaqdan ötrü bu şüardan yararlanmağa çalışır: "Paşinyan manipulyasiya edir, Aİ-də "xoşbəxt gələcəklə" ilə bağlı illüziyalarla əhalini aldadır. Əslində, bu proses Ermənistanın özünün təhlükəsizliyini təhdid edir. Biz Ukraynanın timsalında Aİ və kollektiv Qərbin nə istədiyini görürük. Eyni şeyi Ermənistanla da edəcəklərini gözləyirlər. Qonşu Gürcüstanda bunu tez başa düşdülər, ona görə də özlərini xilas etdilər. Paşinyan isə qərbli kuratorlarının sifarişlərini yerinə yetirməklə tək özünü xilas etmək istəyir".

Rusiyalı politoloq Aleksey Naumov isə hesab edir ki, hakimiyyətdə uzun müddət qalması üçün Paşinyanın bu qanun layihəsinin qəbuluna ehtiyacı var: "Bu, Paşinyanın rəqiblərinə qarşı siyasi silah kimi istifadə etdiyi güclü ideyadır. Aİ bunu görür və anlayır ki, onun təşviqindən faydalanacaq. Brüsselin bunun üçün xüsusi bir iş görməsinə ehtiyac yoxdur. Sadəcə olaraq, mülki müşahidəçilər göndərir, bir az pul köçürür, vəssalam. Bunun müqabilində isə hər şeyə gedən, o cümlədən Rusiya və Azərbaycanın bölgədə maraqlarına qarşı çıxan ölkəni əldə edir".

Ermənistanın Aİ-yə üzvlük kimi planının olmadığına diqqət çəkən Naumov "Avropa evi" adlanan bu xristian ittifaqı ilə quru, yaxud dəniz sərhədi olmayan ölkənin xam xəyallara qapıldığını vurğulayıb.

Amma, hər şeydən göründüyü kimi, belə bir ideyanın gündəmə gəlməsi və parlamentdə müzakirəyə çıxarılacaq qanun layihəsinə çevrilməsi Paşinyan üçün sərfəlidir. Axı, erməni xalqı ölkənin Qərbə doğru istiqamət götürdüyü illüziyasını sevinclə qəbul edir.

Bu məqamda Ankaranın Aİ-yə daxil olmaq cəhdlərini misal gətirmək istərdik. Türkiyə kimi Yaxın Şərqdə əhəmiyyətli geosiyasi mövqeyə və siyasi təsir rıçaqlarına, perspektivli iqtisadiyyata malik ölkəni neçə on ildir Avropanın qapısının ağzında saxladılar. Türkiyə ilə müqayisədə Ermənistan "cırtdan" ölkə, şübhəli tarixə malik, daxili və xarici çağırışlardan birbaşa asılı toplumdur. Ən azı, bu səbəbdən yaxın perspektivdə Ermənistanın Aİ-yə qəbulu şübhə doğurur.

Şübhəsiz ki, ermənipərəst Qərb Cənubi Qafqazda öz təsirini gücləndirməkdə maraqlıdırlar. Ermənistan isə bu konstruksiyanın mühüm, amma müvəqqəti detalıdır. Buna müstəqil şəkildə inkişaf etməyə qərar verən Gürcüstanın xarici siyasətinin dəyişməsi fonunda yanaşsaq, mənzərə tam görünər. Paşinyan kabinetinin atdığı addımlar vətəndaşlara müsbət təsir göstərmir və o, daxili "siyasi təzyiqi" aşağı salmaq üçün belə deyir: "Səbrli olun!", biz tezliklə Aİ-yə daxil olacağıq və ondan sonra hər şey yaxşı olacaq".

İntəhası, yerinə yetirilməyən vədlər seriyası insanları qıcıqlandırmağa başlayır. Parlamentə təqdim olunan qanun layihəsi Nikol Paşinyanın, ona kənardan sırınmış, "ölkəni Rusiya inteqrasiya məkanından çıxarmaq" planının tərkib hissəsidir. Paşinyana gəl-gəl deyən "Kollektiv Qərb"in məqsədi məhz budur. Ondan sonra İrəvanın başına hansı oyunların gələcəyi onu heç maraqlandırmır. Ən yaxşı halda Ermənistan ABŞ-ın Cənubi Qafqazdakı bazasına çevrilmək reallığı ilə üz-üzə qala bilər.

***İ.HƏSƏNQALA***
***XQ***

Köşə

## Xalis fransız notları, xaric Makron ahəngləri və gürcü xoru

*Təbii ki, Salome Zurabişvilinin səsi o xorla uzlaşa bilməzdi*



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Azərbaycandakı bütün uşaqlar kimi mən də ötən əsrin 65-70-ci illərində "Gürcüstan" deyəndə öncə "Dinamo" Tbilisi futbol komandasının ustalığı, sonra isə "Orero" ("Orera") vokal- instrumental ansamblının uğurları haqqında düşünürdüm. Müəllimlərimiz deyirdilər ki, dünyada ən mükəmməl xor nümunələrini məhz gürcülər yaratmışlar. O da yadımdadır ki, Azərbaycanın ən məşhur sənət adamlarından olan Vaqif Mustafazadə 1964-cü ildə Tbilisiyə yollanmış, "Orera" vokal-instrumental ansamblında işləmişdi. Gürcülər onu bu ansambla musiqi rəhbəri dəvət etmişdilər və Vaqif də özünü doğrultmuşdu.**

Qərəz, XX əsrin üçüncü onilliyində gürcülərin əsrlərdən bəri formalaşdırdıqları mükəmməl xor nümunələrinə yad səslər, xaric ( bəli, həm də xarici) notlar, anti - Gürcüstan taktlar, Qafqaza aid olmayan ahənglər qatmağa çalışanlar da tapıldı. Həmin "çalışqan"ların önündə isə Fransa Prezidenti Emmanuel Makron gedir. Bu adam Gürcüstandan nə istəyir? Heç nə. Sadəcə çalışır ki, gürcü xoru pozulsun, ölkədəki siyasətçilərin hərəsinin ağzından bir hava çıxsın, xaos, özbaşınalıq yaransın və Afrikadan qovulan fransız əsgərləri Gürcüstan dağlarında, Kür çayı sahillərində yerləşdirilsinlər. Başqa heç nə istəmir.

Yadımdadır, Emmanuel Makron hələ ötən ilin mayında Gürcüstan Prezidenti Salome Zurabişviliyə göndərdiyi məktubda yazırdı ki, Gürcüstan öz yolunu – Avropaya gedən yolunu – özü seçməlidir. Diqqət yetirin, "öz yolunu" deyir, ardınca isə "Avropaya gedən yolu" diqtə edirdi.

Vaxt ötdü, zaman keçdi və gürcü xalqı öz yolunu seçəndə Makron yenə də səsi gürcü xoru ilə həmahəng olmayan Salome Zurabişviliyə məktub göndərdi. Həmin məktubu oxuyan xanım keçmiş prezident elan elədi ki, dekabrın 29-da mənim prezidentlik səlahiyyətim başa çatır: " Ancaq mən iş otağımdan axırıncı dəfə çıxanda öz legitimliyimi də götürüb gedəcəm". Yəni, orada olmasam da, Gürcüstanın legitim prezidenti mənəm.

İndi ortaya sual çıxır: Emmanuel Makron və Parisdən məqsədli şəkildə göndərilmiş Salome Zurabişvili o qədər anlamaz oldular ki, bütün dünyanın gözü qarşısında Gürcüstanın daxili işlərinə kobudcasına qarışdıqlarının fərqinə varmasınlar? Onlar bunun fərqinə varmasalar da, dünya siyasətçiləri Gürcüstanda müşahidə edilən fransız dirijor çubuğunu çox yaxşı görür.

Dost ölkə parlamentinin Özünüidarəetmə Komitəsinin sədri İrakli Kadagişvili mətbuata verdiyi müsahibələrin birində xatırladıb ki, Prezident İlham Əliyev Gürcüstandakı vəziyyəti yaxşı bilir və obyektiv qiymətləndirir: "Azərbaycan Prezidenti İlham Əliyev məlumatlıdır və Gürcüstandakı vəziyyəti yaxşı bilir. Onun qiymətləndirməsi, əlbəttə, real vəziyyətə uyğundur.

Ölkələr arasındakı əlaqələrin daha da inkişafı üçün qarşılıqlı dəstək əhəmiyyətlidir. Biz bir-birimizin inkişafına kömək etməliyik və bu münasibətləri hərtərəfli şəkildə gücləndirməliyik. Gələcəkdə bu əlaqələrin daha da möhkəmlənməsi tərəflər üçün faydalı olacaq və beynəlxalq məsələlərdə güclü tərəfdaşlıq əlaqələrinin inkişafına şərait yaradacaq".

Yeri gəlmişkən, mətbuatın yazdığına görə, Fransanın bu Cənubi Qafqaz dövlətinin daxili işlərinə qarışmaqdan əl çəkmədiyini nəzərə alan Gürcüstan parlamentinin spikeri Tbilisidəki fransız səfiri ilə sadəcə "məzələnib". Belə ki, səfir Şiraz Qəsri (Sheraz Gasri) Gürcüstanın daxili işlərinə kobud sürətdə qarışaraq "X" sosial şəbəkəsində yazıb ki, Emmanuel Makron demokratiya və azadlıq döyüşçülərinə dəstəyi xarici siyasətimizin prioriteti hesab etdiyi üçün nümayişçilərin və Zurabişvilinin cəsarətini yüksək qiymətləndirərək Gürcüstanda yeni seçkilərin siyasi böhrandan çıxış yolu ola biləcəyini vurğuladı".

Bu absurd və iyrənc münasibətə cavab verən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili "X" platformasında yazıb:"Fransanın daxili siyasətinə qarışmaq fikrim yoxdur, amma nəzərə alsaq ki, fransızların 61 faizi prezident Makronun istefasını, 50 faizi isə Milli Assambleyanın buraxılmasını dəstəkləyir, yeni seçkilər siyasi böhrandan yaxşı çıxış yolu ola bilər" ((https://sputnik-georgia.ru/).

Son günlər gürcü mətbuatında daha bir maraqlı arqumentlə rastlaşırıq. Belə ki, "Qərb, xüsusən, Fransa nə üçün Gürcüstana qarşı belə aqressiv, bağışlanılmaz mövqe tutur?" – sualına cavab verən Tbilisi meri Kaxa Kaladze deyib ki, bunun bir neçə səbəbi var. Həmin səbəblərdən biri Tbilisinin Rusiyaya qarşı açılması istənilən "ikinci cəbhəyə" qarışmamasıdır. İkinci səbəb isə: "Sən demə Gürcüstanın Rusiyaya qarşı sanksiyalara qoşulmaması cinayət imiş".

Kaxa Kaladze onu da əlavə edib ki, heç kəs Gürcüstanı sanksiyalar və şantajla qorxuda bilməz.

# Davosda Xəzər probleminin müzakirəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "İnnovasiya və əməkdaşlıq vasitəsilə dayanıqlılığın sürətləndirilməsi" mövzusunda müzakirədə iştirak ediblər.**



Toplantıda çıxış edən Leyla Əliyeva regiondakı ekoloji problemlərə toxunub, xüsusilə Xəzər dənizində ekoloji vəziyyətin təcili diqqətə ehtiyacı olduğunu bildirib. Qeyd edib ki, son 10 ildə Xəzər dənizinin səviyyəsinin kəskin azalması müşahidə olunur. O, Xəzərin dünyanın ən böyük gölü olduğunu və dünya göllərinin ümumi su ehtiyatlarının 40 faizindən çoxunu təşkil etdiyini vurğulayaraq, onun nadir ekosistemi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.





Heydər Əliyev Fondunun vitse-prezidenti Xəzər dənizində müşahidə olunan problemlərin bir sıra canlıların, o cümlədən Xəzər suitisi, nərə və qızılbalıq kimi qiymətli balıq növlərinin populyasiyasına mənfi təsir etdiyini bildirib. Xüsusilə Xəzər suitilərinin sayının əhəmiyyətli dərəcədə azaldığını qeyd edib və bu növün qorunmasının vacibliyini vurğulayıb.

Xəzər dənizində müşahidə olunan kompleks problemlərin elmi şəkildə öyrənilməsi, monitorinqi və onların mümkün həlli yollarına dair təkliflərin irəli sürülməsi məqsədilə IDEA tərəfindən COP29-da təqdim olunan Xəzər Dənizi Tədqiqat Mərkəzinin yaradıldığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Mərkəzin regional əməkdaşlığı gücləndirməyə və Xəzər dənizinin gələcək davamlılığını təmin etməyə töhfə verəcəyi qeyd olunub.

Çıxışının yekununda Leyla Əliyeva Xəzər dənizinin nadir ekoloji sisteminin qorunması naminə davamlı monitorinq və təhlillərin aparılmasının, elmi tədqiqatların dəstəklənməsinin vacibliyini vurğulayaraq, beynəlxalq ekspertləri, tədqiqat mərkəzlərinin nümayəndələrini və digər maraqlı tərəfləri bu istiqamətdə birgə layihə və təşəbbüslərlə çıxış etməyə, əməkdaşlıq qurmağa çağırıb.

Qeyd edək ki, dövrün ən aktual problemlərinə innovativ həll yollarını araşdırmaq üçün uzaqgörən liderləri, innovatorları və maraqlı tərəfləri bir araya gətirən tədbirdə müxtəlif ölkələrdən müvafiq sahədə fəaliyyət göstərən təşkilatların yüksəksəviyyəli nümayəndələri çıxış ediblər.

*XQ*

# YAP Mərkəzi Aparatında müşavirə

**Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 23-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında seçkilərin təşkil olunacağı bütün seçki dairələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə müşavirə keçirilib.**



Toplantıda bildirilib ki, müşavirə zamanı seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat verilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi vurğulanaraq tövsiyə və tapşırıqlar diqqətə çatdırılıb.

Müşahidəçilərə, həmçinin Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış müvafiq yaddaş kitabçaları təqdim edilib, bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli və demokratik keçirilməsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunub.

*XQ*



# Ölkəmizdə 685 bələdiyyəyə 8 min 71 üzv seçiləcək

**Bələdiyyə seçkiləri Azərbaycan ictimaiyyətində xüsusi maraq doğurur. 685 bələdiyyəyə 8 min 71 üzv seçilməlidir. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan 2 dəfədən çox - 16 mindən artıqdır.**



Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib. O deyib ki, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir.

M.Pənahov vurğulayıb ki, 9 qeyri-hökumət təşkilatının təmsilçiləri həm namizəd, həm də müşahidəçi kimi qeydə alınıblar.

*XQ*

# Zəngəzur dəhlizi Şərqi Qərblə daha da yaxınlaşdıracaq

**Türkiyə Ədalət Müdafiəçiləri Assosiasiyasının Strateji Araşdırmalar Mərkəzinin vitse-prezidenti, tanınmış ekspert Ersan Ergür mediaya açıqlamasında Zəngəzur dəhlizinin açılmasının region ölkələri arasında iqtisadi əməkdaşlığa necə təsir edəcəyinə, Orta Dəhliz marşrutunda hansı rolu oynayacağına geniş aydınlıq gətirib:**

– Zəngəzur dəhlizinin açılması Orta Dəhliz kontekstində mühüm rol oynayaraq iqtisadiyyata əhəmiyyətli təsir göstərəcək və region ölkələri arasında əməkdaşlığı gücləndirəcək. Çinin qlobal iqtisadiyyatda öz təsirini göstərmək üçün hazırladığı Yeni İpək yolu təkcə Çində deyil, həm də yeni ticarət yollarının keçdiyi ölkələrin iqtisadi inkişafına təkan verəcək.

Bu baxımdan Orta Dəhliz və onun əsas komponenti olan Zəngəzur dəhlizi Türkiyə ilə Avropa ölkələri arasında fasiləsiz əlaqəni təmin edir. Hazırkı mərhələdə Zəngəzur dəhlizinə qoşulan Orta Dəhlizdən D-8-ə üzv ölkələrin, eləcə də regionun müsəlman ölkələrinin, xüsusilə Türk Dövlətləri Təşkilatının iqtisadi fayda əldə edəcəyini proqnozlaşdırmaq olar.

İndi Türkiyə üzərindən Orta və Cənubi Asiya ölkələri ilə tikiləcək ticarət körpüsü həm özümüz üçün qarşılıqlı fayda prinsipinə xidmət edəcək, həm də ötən əsrdə bizi istismar etmək istəyən dövlətlərin qarşısında sədd olacaq. Bu dəhliz boyu yaradılacaq dəmir yolu daşıma marşrutunun iqtisadi töhfəsi qiymətləndirildikdən sonra Zəngəzur dəhlizinin əhəmiyyəti daha aydın görünəcək.

**Zəngəzur dəhlizinin iqtisadi potensialının perspektivlərindən söz açan ekspert deyib:**

– Zəngəzur dəhlizi, ilk növbədə, Azərbaycan və Türkiyə iqtisadiyyatlarına müsbət töhfə verəcək. Türkiyənin TDT ilə inkişaf etdirmək istədiyi sənayeləşmə, xüsusilə də müdafiə sənayesi sahəsində əməkdaşlıq daha aktiv və təhlükəsiz şəkildə həyata keçirilə bilər. Təbii ki, sadəcə Zəngəzur dəhlizinin istifadəyə verilməsi kifayət etməyəcək. Xüsusilə, müvafiq avtomobil və dəmir yolu infrastrukturunun təkmilləşdirilməsinə də diqqət yetirilməlidir.

Türkiyə SSRİ-nin dağılmasından sonra Orta Asiyanın türk dövlətləri ilə həmişə iqtisadi və siyasi əlaqələri inkişaf etdirməyə çalışıb. Beləliklə, Zəngəzur dəhlizi tarixi fürsəti, məqsədi reallaşdırmağa imkan verəcək. TDT üzvü olan ölkələr, eləcə də D-8 ölkələri ilə əlaqələrin inkişafına strateji imkanlar yaranacaq. Bu dəhliz Türkiyə üçün qlobal iqtisadi və siyasi müstəvidə son dərəcə əlverişli mövqenin formalaşmasına töhfə verəcək.



**Türkiyə Xarici İşlər Nazirliyinin məlumatına istinad edən Ersan Ergür qeyd edib ki, Çindən Avropaya gedən 10 milyon konteynerin 96 faizi dəniz yolu ilə, qalan 4 faizi isə Şimal dəhlizi adlanan Trans-Sibir dəmir yolu ilə daşınır:**

– Orta Dəhliz Avropa və Asiya arasında Şimal dəhlizindən daha sürətli və daha iqtisadi səmərəli ticarət yoluna çevrilir. Orta Dəhliz, Türkiyənin liman əlaqələri sayəsində Çin və Mərkəzi Asiyadan Yaxın Şərq, Şimali Afrika və Aralıq dənizi regionuna kommersiya daşımaları üçün əhəmiyyətli imkanlar təqdim edir. Zəngəzur dəhlizini Çindən Avropaya kommersiya marşrutu hesab etsək, Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın, Azərbaycanın, Gürcüstanın bu layihədən müsbət faydalanacağını görə bilərik. Dənizə çıxışı olmayan Əfqanıstanın Zəngəzur və Orta Dəhlizdən faydalanacağını nəzərə alsaq, bunun daha geniş coğrafiyaya hansı iqtisadi fayda gətirəcəyi aydın olur.

Zəngəzur dəhlizi sosial, iqtisadi, geosiyasi və geostrateji baxımdan Azərbaycan, Çin və Mərkəzi Asiya, eləcə də Avropanın əlaqəsini asanlaşdıra biləcək layihə hesab olunur. Bu, D-8 ölkələrinin bir-biri ilə problemsiz əlaqə yaratmasına da imkan verəcək. Təbii ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa əlaqənin yaradılmasının vacibliyini qeyd etməyə bilmərəm.

Uzunmüddətli perspektivdə həyata keçiriləcək bu dəhliz sayəsində region əhalisinin rifahı və iqtisadiyyatı yaxşılaşacaq, ölkələr arasında iqtisadi əməkdaşlıq sayəsində gərginlik azalacaq, təhlükəsiz bölgədə yaşamaq imkanı yaranacaq. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişafı və daha səmərəli olması üçün Zəngəzur dəhlizinin tezliklə həyata keçirilməsi zəruridir.

*Hazırladı:*
*T.RÜSTƏMLİ*
*XQ*




# Qaradağ seçki dairəsində treninqlər

**Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar dairə və məntəqə seçki komissiyalarının bütün üzvlərinin iştirakı ilə hazırlığın artırılması, seçki sahəsində bilik, bacarıq və işgüzar vərdişlərin təkmilləşdirilməsi, xüsusilə protokolların düzgün doldurulması istiqamətində 37 saylı Qaradağ seçki dairəsi dairə seçki komissiyasında növbəti treninqlər təşkil olunub.**

Treninqlərdə çıxış edən 37 saylı DSK-nın sədri Azər Ələsgərov seçki dairəsi üzrə hazırda 37-si daimi, 3-ü isə müvəqqəti olmaqla 40 seçki məntəqəsinin fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, bu günə qədər seçki dairəsi üzrə 48 mindən çox seçici qeydə alınıb. Seçicilərin 492 nəfəri 80-100 yaşlı insanlardır. 74 nəfər isə ilk dəfə səs verəcək gənclərdir.

Vurğulanıb ki, Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən məntəqələr bütün zəruri vəsaitlərlə təchiz olunub.

Ümumilikdə bələdiyyə üzvlüyünə 128 nəfərin namizədliyi qeydə alınıb. Namizədlərin təbliğat və təşviqatı üçün seçki dairəsinin ərazisində lazımi şərait mövcuddur. Belə ki, bütün seçki məntəqələrinə yaxın ərazilərdə təşviqat lövhələri quraşdırılıb. Bu günə qədər dairə seçki komissiyası tərəfindən 403 müşahidəçi qeydə alınıb.

Seçicilərin rahat və maneəsiz şəkildə seçki məntəqələrinə gələrək səsverməsi məqsədilə seçki məntəqələrində bütün şərait yaradılıb.

Treninq iştirakçılarına MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, səsvermə günü məntəqənin açılması və sair barədə məlumat verilib. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası da təqdim edilib. 230 nəfərdən çox şəxsin iştirak etdiyi treninqdə dairə və məntəqə seçki komissiyalarının üzvlərinin sualları cavablandırılıb.

*XQ*

# Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti

(əvvəli 1-ci səhifədə)

## III məqalə

## "3+3" və regional inkişaf

Prezident İlham Əliyevin "3+3" formatına regional inkişaf kontekstində yanaşması dəqiq düşünülmüş kursun təzahürlərindən biridir. Bu məqam, ümumiyyətlə, yeni şəraitdə təhlükəsizliklə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmənin regional miqyasda bir-birinə bağlantısını ifadə edir. Özlüyündə mürəkkəb vəzifədir. Lakin indiki şərtlər daxilində başqa cür davamlı regional inkişaf yolu yoxdur. Regionda müxtəlif qüvvələr o dərədəcə fərqli fəaliyyət göstərirlər ki, təhlükəsizlik daha sıx surətdə inkişafla bağlı hala gəlmişdir.



Vurğulanan istiqamətdə Azərbaycanın müəyyən təcrübəsi də mövcuddur. Bu təcrübə enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin bir-biri ilə sıx əlaqələndirilməsinə əsaslanır. Azərbaycanın enerji strategiyaında bu özəllik özünü aydın göstərməkdədir. Hazırda Mərkəzi Asiyadan başlayaraq Avropaya qədər geniş bir məkanda Azərbaycanın enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi qarşılıqlı əlaqədə təmin etdiyini hər kəs qəbul edir. ABŞ və Avropanın yüksək səviyyəli rəsmiləri bununla bağlı dəfələrlə fikir bildirmişlər.

Bu zəmində regional inkişafın davamlı formasına keçid etmək mümkündür. Hətta "3+3"-ün regional əməkdaşlığın mühüm amilinə çevrilməsi perspektivini Azərbaycan Prezidenti vurğulamışdır. Onun reallaşması üçün isə regionda hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı etibarlı zəmanət olmalıdır. Bu keyfiyyətdə "3+3" platforması maraqlı nümunə ola bilər.

Məsələ onunla bağlıdır ki, bu format regionun 6 ölkəsini ortaq mövqeyə gətirmək məqsədi daşıyır. Əgər bu baş tutsa, regiondaxili mühitdə düşmən axtarışı olmayacaq. Əsrlərdir ki, kənarda məhz bu faktora görə Cənubi Qafqazı qarışdırmışlar. Regionda yaşayan xalqları bir-birinə düşmən eməklə özlərinin niyyətlərini həyata keçirmişlər. "3+3" formatı hər şeydən öncə bu təhlükəli gedişatın qarşısını ala bilər. Buradan başqa bir maraqlı və aktual imkan meydana gəlir.

### Regionlararası konstruktiv əməkdaşlıq

Geosiyasi trendlərin Cənubi Qafqaz kontekstinə regionlararası masştabda baxmaq artıq bir zərurətdir. Çünki Cənubi Qafqazın qonşu regionlarla çox müxtəlif sferalarda əlaqələri xeyli artmışdır. Hazırda geosiyasi aspektdə faktiki olaraq yeni mənzərə meydana gəlmişdir. Onun əlamətləri sırasında regional təşkilatların geosiyasətdə rolunun artması ilə də bağlıdır. Cənubi Qafqaz üçün bu mənada Türk Dövlətləri Təşkilatı, MDB və Qoşulmama Hərəkatı əhəmiyyətli rol oynamaqdadır.

Maraqlıdır ki, regionun 3 dövləti bu təşkilatların hansınasa birlikdə üzv deyillər. MDB-də öncələr hər üç Cənubi Qafqaz dövləti vardı. Gürcüstan Rusiya ilə olan münaqişədən sonra təşkilatı tərk etdi. Türk Dövlətləri Təşkilatına ancaq Azərbaycan daxildir. Qoşulmama Hərəkatında da Ermənistan (müşahidəçi statusundadır) və Gürcüstan yoxdurlar. Ümumiyyətlə götürdükdə isə hələlik elə bir siyasi xarakterli regional təşkilat yoxdur ki, hər 3 Cənubi Qafqaz dövləti onun üzvü olsunlar.

Burada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) istisnalıq təşkil edir. Onun Nizamnaməsində "bir sıra istiqamətlər üzrə iqtisadi aktivliyin artırılması vasitəsilə regionda sülhün, sabitliyin və inkişafın təmin edilməsi" prioritetlərdən biri kimi yer almışdır. Ancaq "təşkilat çərçivəsində prioritet əməkdaşlıq sahələri kimi, aşağıdakılar müəyyən edilmişdir: ticarət və investisiyalar, gömrük, energetika, nəqliyyat, ətraf mühitin mühafizəsi, elm və texnologiyalar, informasiya və kommunikasiya texnologiyaları, təhsilə investisiyalar, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, turizm, kiçik və orta müəssisələrin inkişafı".

Belə görünür ki, QDİƏT 3 Cənubi Qafqaz ölkəsinin regional inteqrasiyasına dolayısı ilə yanaşır. Yəni birbaşa Cənubi Qafqazda siyasi, geosiyasi inteqrasiya və təhlükəsizliyin təmini kimi məsələlər prioritet deyildir. Qara dəniz regionu isə genişdir və ora daxil olan dövlətlərin ortaq təhlükəsizlik və geosiyasi inteqrasiya modeli mövcud deyildir. Burada təhlükəsizliyin təmini məsələsinə enerji sferasında əməkdaşlıq prizmasında bir sıra cəhdlər olmuşdur. Lakin onların heç biri real nəticə verməmişdir. Həm də məsələ adətən Qara dəniz–Xəzər dənizi hövzəsi kontekstində qoyulurdu. Hazırda bu məsələ arxa plana keçirilmiş kimi görünür.




Bütün bunların fonunda "3+3" formatının regionlararası miqyasda perspektivi məhz təhlükəsizlik-qarşılıqlı faydalı əməkdaşlıq-geosiyasi inteqrasiya aspektlərində aydın görünür. Belə ki, həmin format yuxarıda vurğulanan bütün tələblərə cavab verir.

Birincisi, burada Cənubi Qafqazın hər üç dövləti üzv kimi nəzərdə tutulmuşdur.

İkincisi, onlarla yanaşı, digər 3 region dövlətləri – Rusiya, Türkiyə, İran da daxil olmalıdır.

Üçüncüsü, "3+3" formatı təhlükəsizliklə müxtəlif istiqamətlərdə əməkdaşlığı qarşılıqlı əlaqədə nəzərdə tutur.

Dördüncüsü, bu format həm də qlobal xarakterli əməkdaşlıq layihəsi olan "Yeni İpək Yolu" ilə sıx bağlıdır. Həmin kontekstdə nəqliyyat, logistika, kommunikasiya, informasiya, gömrük və digər sferalar üzrə əməkdaşlıq nəzərdə tutulur. O cümlədən, "3+3" formatı çərçivəsində Zəngəzur dəhlizinin Orta Dəhlizin bir fraqmenti kimi işləməsinin prinsipial olaraq yeri müəyyən edilmişdir. Əslində Zəngəzur dəhlizi məsələsi bir sıra aspektlərdə "3+3"-ün reallaşmasının həlledici məqamlarından biri kimi də qəbul olunur. Xüsusilə dəhlizə nəzarət bu format çərçivəsində daha perspektivli, real və regionun maraqlarına uyğun təsəvvür edilir.

Belə alınır ki, "3+3" formatı təşkili, funksional və strateji məqsəd aspektlərində region miqyasından regionlararası masştaba transformasiya üçün kifayət qədər yararlıdır. Bu layihənin həyata keçməsi müasir mərhələdə ilk dəfə olaraq perspektivi ola biləcək formatda hər bir region dövlətini əhatə edən inteqrativ mahiyyətli geosiyasi dinamikanı formalaşdırması mümkündür.

Onun faydası müxtəlif sferaları əhatə edə bilər. O cümlədən, bütövlükdə dünya üçün aktual sayılan terrorla mübarizədə bu platforma böyük səmərə verər.

### Terrorun hər növü ilə prinsipial mübarizə

Özünü böyük sayan hər bir dövlət terrorla mübarizə apardığını hər fürsətdə bəyan edir. ABŞ, Aİ, Çin, Rusiya, Fransa, Britaniya, İsrail, İran və s. Bu bəyanlar əslində həmin dövlətin özünü mərhəmətli, ədalət və inkişaf tərəfdarı, sülhsevər, insan faktoruna üstünlük verən obrazı yaratmağa xidmət edir. Çünki terrorla mübarizə aparan dövlətlər reallıqda "terror" və "terrorçu" anlayışlarına bütün təzahür hallarında adekvat qiymət vermir, eyni münasibət göstərmir. Məsələn, oxşar hadisələr bir dövlət üçün terrordur, başqası üçün insan haqlarının qorunması və yaxud, bir dövlət dini mənsubluğu terrorizmlə eyniləşdirir və bunun üçün çoxlu "arqument" gətirir. Başqa dövlət isə tamamilə fərqli mövqedə olur.

Bu qeyri-müəyyən vəziyyət fəlsəfi aspektdə terror və terrorla mübarizənin qeyri-müəyyən məna çalarlarına malik olduğu nəticəsini çıxarmağa əsas verir. Başlıca sual isə belədir: gerçəkdən terrorla mübarizə aparan dövlət terrorun istənilən növünə qarşı mübarizə aparandır!

Təcrübə göstərir ki, az sayda dövlət məhz bu mövqedədir. Onların sırasında Azərbaycanın öz yeri vardır. Azərbaycan həqiqi mənada terrorun və hərbi təcavüzün bütün növlərinə qarşı savaş verməkdədir. Heydər Əliyev 1995-ci ildə BMT-nin tədbirində çıxış edən zaman açıq bəyan etmişdi ki, "Azərbaycan xalqının iradəsini ifadə edərək bəyan edirəm ki, biz Yer kürəsinin hər hansı bir nöqtəsində və hər hansı bir formada təcavüzkarlığı pisləyirik. Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik, bizim regionda siilh istəyirik, bütün qonşu dövlətlərlə sülh və mehriban münasibətlər istəyirik"!

Yuxarıda vurğulanan müddəalardan dövlətçilik baxımından vacib sayılan birnəticə çıxara bilərik. Azərbaycanın terrorun və hərbi-informasiya təcavüzkarlığının hər növünə qarşı mübarizəni dünya miqyasında əhəmiyyətli hesab etməsi, onun müstəqil dövlət kimi identikliyinin əsas parametrlərindən biridir.

Terror və zorakılığın istənilən növü ilə dünyanın hər guşəsində mübarizə aparmaq strategiyası Azərbaycan dövlətinin milli miqyasdan regionala və oradan regionlararası masştaba öz dəyərlərini uğurlu proyeksiya etməsinin fəlsəfi məqamıdır. Bu, müstəqil dövlət üçün çox ciddi müsbət bir keyfiyyətdir.

İndi kimlərsə, ola bilər ki, bu tezisin reallığına inanmaq istəməsin. Ancaq praktika hər şeyi yoluna qoyur. Azərbaycan Respublikası müstəqil dövlət kimi regionda və regionlararası səviyyədə konkret uğurları olan dövlətdir. Kim ki, vicdanı ilə "Bakı bunlara necə nail olmuşdur?" sualına cavab axtarmağa çalışsa, vurğuladığımız tezisin həqiqiliynə tam varlığı ilə əmin olacaq!

Başqa tərəfdən, hələlik Azərbaycan müstəqil dövlət kimi əsrlərlə qaldığı "geosiyasətin buludları arxası"ndan, onları dağıdaraq parlayan "Gənc ulduz"dur. Onun parlaqlığından çoxlarının gözləri, ağılları və vicdanları qamaşa bilər! Bəziləri dərk edir, lakin həzm edə bilmir, bir çoxları inanmır, elə zümrə də vardır ki, ümumiyyətlə, laqeydlik mərəzinə tutulmuşdur!

Amma reallıq belədir: Azərbaycan Respublikası dövləti artıq öz sözü, yeri, dəqiq müəyyən etdiyi identikliyi və fəaliyyət prinsipləri olan, özünə və başqa dövlətlərə saygı ilə yanaşan müstəqil güclü dövlətdir! Onun yeni uğurlu lideri vardır! Bunun qürurunu yaşamaq da ayrı bir məsuliyyət, zövq və məsumluqdur!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

### Bernard Arno 2012-ci ildə: "Biz ona kömək etməliyik!"

Avropanın ən qüdrətli milyarderi ilə bu yaxınlıq iddialı Makron üçün göydəndüşmə bir şansdır. Həm də Bernard Arno fransız mətbuatında çox nüfuzlu və ictimai fikirlərə böyük təsir göstərən iki gündəlik qəzetin – "Les Echos" və "Le Parisien" – sahibidir. Onun çox geniş siyasi şəbəkəsi var və bu şəbəkə həm sağçılardan, həm də solçulardan ibarətdir. Bernard Arno qrupunun baş direktoru Nikola Bazir 1993-1995-ci illər arasında, ovaxtkı Baş nazir Eduard Balladürün keçmiş kabinet direktoru olub, özü də Nikola Sarkozinin yaxın adamıdır. O, həm də əvvəllər Rotşild bankının idarə rəhbəri olub. Arvadının sayəsində yaxınlaşdığı LVMH lüks qrupu ilə işlədiyi məşhur Rotşild bankı arasında Makron özünü böyük biznesin sağçılardan ibarət olan şəbəkələrinin mərkəzində hiss edir. Bundan sonra gələcək prezident daha da ehtirasa gəlib, müxtəlif adamlarla görüşlərinin sayını artırır: Keçmiş iqtisadiyyat naziri, ATOS informatika qrupunun baş direktoru, Bernard Arnonun yaxın dostu Terri Breton, keçmiş nazir, indiki LVMH qrupunun administratoru Hübert Vedrin, LVMH qrupunun Nyu-Yorkdakı filialının direktoru Reno Dütrey, Dior firmasının (o da LVMH qrupuna aiddir) və Louis Vuitt on Fondunun administratoru Reno Donnediö dö Vabr və sairə.

Makron ətrafına görün kimləri yığıb – "qaymaqların qaymağını". Dütrey ilə Donnediö Jan-Pier Raffaran və Dominik Villpənt Baş nazir olanda, onların nazirləri olublar. Hələ 90-cı illərdə hər ikisi o vaxt Fransua Leotardın sədr olduğu Respublika




Partiyasının gənc ümidverən siyasətçiləri idilər. Düzdür, sonra bu siyasi hərəkət ilə bağlı məhkəmə işi qaldırıldı, çünki Respublika Partiyasının Fondo bankı tərəfi ndən maliyyələşdirilməsində nöqsanlar tapıldı. Bundan başqa, Fransua Leotard ilə Donnediö 1995-ci ildə Eduard Balladürün prezident kampaniyasının Pakistan və Səudiyyə Ərəbistanı ilə silah müqaviləsi bağlanışında əldə olunan vəsaitlə maliyyələşdirilməsində ittiham olundular.

2009 və 2011-ci illərdə Emmanuel Makron Rotşild bankının məsləhətçisi kimi Reno Donnediö dö Vabr ilə Parisin Konkord meydanındakı monumental Marin hotelinin yenidənqurma layihəsi üzərində işləyir. Bu layihənin müəllifi Aleksandr Allard adlı bir iş adamıdır. O, əvvəllər məşhur "Royal Monceau" hotelinin də yenidən qurulması ilə məşğul olmuşdu.Dövlətə gördüyü işlərin faydalı olduğunu sübut etmək üçün Allard, Mədəniyyət Nazirliyinə, investisiya bankiri Emmanuel Makrona və Yelisey sarayının keçmiş Baş katibi, Jak Şirakın qızı Klod Şirakın əri advokat Frederik Salat-Baruksa müraciət edir. Allard daha sonra mədəniyyət nazirinin vasitəsilə birbaşa Yelisey sarayının aktual Baş katibi Klod Jean ilə də görüşür. Ancaq bu cür sanballı adamlar tərəfi ndən dəstək almasına baxmayaraq, Jiskard d'Estanqın başçılıq etdiyi komissiya "Marin" hotelinin yenidənqurma layihəsini təsdiqləmir. 2014-cü ildə Makron iqtisadiyyat naziri təyin olunanda, Aleksandr Allard sevincini gizlətmir. Hətta "Paris Match" jurnalına verdiyi müsahibədə qeyd edir ki, "o vaxt Emmanuel Makron mənim Konkord meydanındakı "Marin" hoteli ilə bağlı layihəmi çox bəyənmişdi... demişdi ki, bu hotel yenidənqurma işlərindən sonra talant və yaradıcılıq vitrinası olacaq...". Bu layihənin baş tutmamasına baxmayaraq, Makronla Reno Donnediö dö Vabr arasındakı əlaqələr pozulana oxşamır. Belə ki, 2017-ci ilin oktyabrında prezidentin Ərəb Əmirliyində yeni Luvr muzeyinin açılışı münasibəti ilə Abu-Dabiyə rəsmi səfərindən bir neçə gün əvvəl, Brijit Makron onu Yelisey sarayındakı kabinetində qəbul edir. Keçmiş fransız dili müəlliməsi unutmayıb ki, Ərəb Əmirliyində Luvr muzeyi yaratmaq layihəsini on il əvvəl mədəniyyət naziri olduğu zaman Reno Donnediö dö Vabr təklif eləmişdi.

Əri Emmanuel kimi adlı-sanlı, varlı, imtiyazlı adamları ətrafına toplamaq arzusu ilə alışıb yanan Brijit, bu dəfə bütün dünyada məşhur olan Louis Vuitt on firmasının prezidenti, milyarder Bernard Arnonun birinci arvadından olan qızı Delfi n Arno (Free Telekom şirkətinin prezidenti, milyarder Ksaviye Nielin həyat yoldaşı) ilə tanış olur və tezliklə onun yaxın rəfiqəsinə çevrilir. Onlar 2014-cü ilin avqustunda Los-Ancelesdəki bir restoranda nahar zamanı tanış olurlar və o gündən bu iki qadının arasından su keçmir. Lüks qrupu tərəfi ndən sponsorluq edilən gələcək prezident cütlüyü, indi ancaq Louis Vuitt on və Dior markalı paltarlar geyinir. Həmişə sağçılar partiyasına səs verən milyarder Bernard Arno bu dəfə Alan Jüppenin prezidentliyə namizədliyi ilə maraqlansa da, Emmanuel Makronun siyasi gələcəyinə müsbət baxır. Onun yaxın qohumlarından biri, riyaziyyatçı Sedrik Villani, hətta Makronun partiyası tərəfindən deputat seçiləcək.

2016-cı ildə Emmanuel ilə Brijit, demək olar ki, hər həftə, Bernard Arnonun evində şam edir. Milyarder siyasi prinsipləri haqqında mətbuatda çox açıqlamalar verməsə də, iki tur arasında "Les Echos" gündəlik qəzetinə verdiyi müsahibədə qeyd edir ki: "Mən tərəddüd etmədən Emmanuelə səs verəcəyəm...". Bir il sonra LVMH firmasının patronu (Bernard Arno) gənc prezidenti dövlət səfəri çərçivəsində ABŞ-a müşayiət edir və orada hamının qarşısında bəyan edir ki: "Fransanın birinci xanımını geyindirmək onun üçün böyük şərəfdir...". Onun həmkarlarından birinin dediyinə görə, milyarder Bernard Arno Brijit Makronla "çox yaxın" əlaqə saxlayır. Onun həyat yoldaşı, pianoçu Elen Mercier-Arnoda Brijitlə çox yaxın münasibətdədir. LVMH firmasının yüksək vəzifəli icraçılarından biri etiraf edir ki: "Bernard Arno Brijit ilə yaxın dostdur...amma onda Emmanuelə qarşı da dəhşətli bir ehtiras var...". Milyarderin təbiətcə soyuq adam olması Fransada hamıya bəlli olduğundan, onun Makrona olan ehtirası çox qəribə səslənir... Əslində, onların münasibəti köhnədəndir: Bernard Arno Emmanuel Makronun siyasi ambisiyasını çox tez sezmişdi. 2012-ci ilin iyun ayında Fransua Holland Respublika prezidenti seçiləndən sonra varlıların illik qazancının 75 faizini vergilərə çıxmağı təklif edəndə, milyarder Bernard Arno Paris meriyasında çalışan keçmiş işçisi Kristof Jerarda belə deyir: "Nə sizin dostunuz Fransua Hollandın, nə də onun Baş naziri Jan-Mark Ayronun biznesdən,iqtisadiyyatdan başları çıxır. Amma mən onların komandasında olan Emmanuel Makron adlı cavan bir oğlan tanıyıram. Ona kömək etmək lazımdır...".

### Brijit onu Jak Attali ilə tanış edir

Parisdə Brijit Makron özünü cənnətdəki kimi hiss edir. Amien şəhərində çəkdiyi əzab-əziyyətlər artıq geridə qalıb. O vaxt onun Emmanuelə olan sevgisinə hamı lağ edirdi, o cümlədən də öz ailəsi onu ələ salırdı. Paytaxtda isə bu fransız dili müəllimi ancaq tanınmış mədəniyyət və incəsənət adamları ilə oturub-durur. Onların ümumi dostlarından biri zarafatla deyir ki: "Makronların ailəsində günlərini eyş-işrətlə keçirən, arvaddır...". Brijitin peşəkar fəaliyyəti və şəxsi əyləncələri tək özünə aid deyil, həm də ərinin ətrafına nüfuzlu və lazımlı adamlar yığmaqdır. Belə ki, müəllim işlədiyi Franklin liseyində o, başqa bir nüfuzlu geniş əlaqələri olan bir valideynlə də tanış olur. Bu kim olsa, yaxşıdır? Nikola Sarkozinin dostu, gəncliyində özü də bu liseydə təhsil alan, katolik vəkil Fransua Süro!.. Fərdi azadlığın və miqrantların müdafiəçisi kimi tanınan bu adam Makron prezident seçiləndən sonra müdafiə məsələlərində onun yaxın müşaviri olacaq...

Parisə köçən gündən Emmanuel ilə arvadı ətraflarına imtiyazlı və nüfuzlu, eləcə də geniş əlaqələri olan adamlar toplamaqla məşğuldurlar. Etiraf etmək lazımdır ki, onların tapdığı şəbəkələr, hörümçək toru kimi çoxşaxəlidir. Bu cütlüyün oturub-durduğu adamların arasında qüdrətli Serj Veynberq (Sanofi şirkətinin patronu), eləcə də biznes işləri ilə məşğul olan məşhur vəkil Jan-Mişel Darrua və onun həyat yoldaşı, fotoqraf Bettina Rems da var. Veynberq kimi Darrua da Emmanuel Makronun "xaç atalarından" biridir. Vaxtilə Makronu Rotşild bankında işləməyə o düzəltmişdi. Pas-dö-Kala departamentində yerləşən, Paris, Amiyen və Lil şəhərlərinin burjua təbəqələrinin istirahət etdiyi dənizkənarı lüks Tüket kurortunda istirahət edən zaman, Brijit orada tanınmış "Image 7" rabitə agentliyinin direktoru Anna Meo ilə də tanış olmuşdu. (Bu sonuncu 2017-ci ildə Fransua Fiyyonu dəstəkləyəcək) Onların əlaqəsi heç vaxt qırılmayacaq.

**(ardı var)**

# İqtisadi mərkəz ötən ilin yekunlarını şərh edib



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı qurumun 2024-cü ildəki fəaliyyətinin yekunlarına dair mətbuat konfransında ötən il mərkəzin monitorinq və qiymətləndirmə işini davam etdirdiyini, "Layihə idarəetməsi" modulunu formalaşdıraraq tətbiqini həyata keçirdiyini bildirib. Vurğulayıb ki, İİTKM-in nəzdində fəaliyyət göstərən "Azexport" və "Enterprise Azerbaijan" portalları, Rəqəmsal Ticarət Qovşağı, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Türk Dünyası Araşdırmalar Mərkəzi 2024-cü ildə də önəmli layihələrə imza atıb.**

Vüsal Qasımlı qeyd edib ki, İİTKM hazırda ölkə üçün mühüm önəm daşıyan sənədlərin – "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" daxil olmaqla 10 proqramın monitorinq və qiymətləndirməsini aparır. Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəz 2024-cü ilin oktyabr ayından daha bir mühüm sənədin – "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın monitorinq və qiymətləndirilməsini icra edir.

Mətbuat konfransında bildirilib ki, il ərzində 11 dövlət proqramının idarə edilməsi çərçivəsində 60-a yaxın qurumla 150 iclas keçirilib, monitorinq nəticələri ilə bağlı 28 hesabat hazırlanıb. Mərkəz tərəfindən dövlət proqramlarının icrasını sistemli şəkildə izləmək və qiymətləndirmək üçün "Layihə idarəetməsi" modulu hazırlanıb.

İcraçı direktorun sözlərinə görə, İİTKM hesabat dövründə beynəlxalq əməkdaşlığı genişləndirərək Böyük İyirmiliyin və Böyük Yeddiliyin beyin mərkəzləri platformalarında – T20 və T7-də Azərbaycanı uğurla təmsil edib. Belə ki, 2024-cü ilin oktyabr ayında mərkəzdə keçirilən Beynəlxalq Valyuta Fondunun "Makroiqtisadi təhlil/Maliyyə proqramlaşdırması və siyasətləri" adlı təlimində 10-dan çox dövlət qurumundan 25 nümayəndə iştirak edib. Noyabr ayında isə Asiya İnkişaf Bankı, Asiya İnkişaf Bankı İnstitutu və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı İnstitutu ilə "Qlobal beyin mərkəzləri forumu" keçirilib. Ötən il, həmçinin İİTKM-in də təsisçisi olduğu Azərbaycan Beyin Mərkəzləri Platforması yaradılıb.

Konfransda 2024-cü il ərzində mərkəzdə 5 konseptual sənədin hazırlanaraq hökumətə təqdim olunduğu bildirilib. Həmçinin icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin ekonometrik qiymətləndirilməsi aparılıb. "Qarabağ və Şərqi Zəngəzura investisiya" mövzusunda ingilis dilində xüsusi buraxılış nəşr edilib. "Yaşıl" artım və "yaşıl" enerjiyə keçidlə bağlı aparılan tədqiqatların nəticələri "Scopus" bazasında indeksləşdirilən Q1 və Q2 reytinqli jurnallarda dərc olunub.

2024-cü ildə mərkəz tərəfindən, həmçinin "İqtisadi inkişaf" monoqrafiyası, "Orta dəhliz", "Halal iqtisadiyyat", "İslam ölkələrinin iqtisadi potensialı" kitablarını nəşr edilib. 10 fəsildən ibarət 700 səhifəlik "İslam ölkələrinin iqtisadi potensialı" kitabı 30-dan artıq İslam ölkəsindən 70-dən çox müəllif, 10 beynəlxalq təşkilat, 20-dən artıq beyin mərkəzi və universitetin birgə əməkdaşlığı əsasında hazırlanıb.

Mərkəzin innovativ layihələrindən danışan Vüsal Qasımlı əlavə edib ki, Azərbaycanın ixrac coğrafiyasının genişlənməsinə xidmət edən "Azexport" portalının Türkiyə, Rusiya və Özbəkistanın "Trendyol", "Ozon", "Uzum" platformalarına inteqrasiyası reallaşdırılıb. 2024-cü ildə "Azexport" tərəfindən ixracatçılara 61 ədəd sərbəst satış sertifikatı təqdim edilib.

"Enterprise Azerbaijan" portalı ABŞ-ın Nevada Universiteti, Almaniyanın Süni İntellekt Araşdırma Mərkəzi ilə birgə regionun ən böyük startap məktəbi – "StartUp School 2" layihəsini həyata keçirib. "StartUp School 2 - Al for Green Solidarity" layihəsinə müraciət edən 121 startap arasından beynəlxalq ekspertlərin seçdiyi 41 ən yaxşı komandaya ABŞ, Almaniya, İngiltərə, CAR, Türkiyə, Rusiya və Azərbaycandan olan mentorlar tərəfindən təlimlər keçirilib.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2024-cü il ərzində hüquqi və fiziki şəxslərdən 1747 müraciət daxil olub. Ümumilikdə 3982 ədəd sertifikat verilib, 288,2 milyon dollar dəyərində ixrac həyata keçirilib.

Ötən ildə digər bir innovativ layihə "Qiymət izləmə tətbiqi"nin yaradılması ilə bağlı da kifayət qədər böyük işlər görülüb, Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidməti ilə əməkdaşlıq edilib.

İİTKM-in tabeliyində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi "Türk Dünyasına Baxış-2040" və "TDT-nin 2022-2026-cı illər üzrə Strategiyası"nda nəzərdə tutulan hədəflərə töhfə vermək məqsədilə fəaliyyətini genişləndirib. Mərkəzin təqdim etdiyi "Türk dövlətlərinin interaktiv geoiqtisadi xəritəsinin" konsepsiya sənədi TDT-nin İqtisadi Əməkdaşlıq üzrə işçi qrupunun toplantısında qəbul olunub. TDT ilə birlikdə il ərzində "Türk iqtisadi icmalı"nın 4 buraxılışının 8 dildə hazırlanması və kommunikasiyası reallaşdırılıb.

# AYİB Gəncənin su təchizatı layihəsinə kredit ayıracaq

**Ölkəmizin Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı getdikcə genişlənir. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması məqsədilə adı çəkilən maliyyə qurumu ilə kredit sazişinin imzalanması da bunun bariz nümunəsidir.**



Kredit sazişi Davosda Azərbaycan Prezidenti İlham Əliyevin AYİB-in prezidenti Odile Reno-Basso ilə keçirdiyi görüş zamanı imzalanıb. Sənədə iqtisadiyyat naziri Mikayıl Cabbarov və bankın birinci vitse-prezidenti Yurqen Riqterink imza atıblar.

Sazişə əsasən, Gəncədə su təchizatının modernləşdirilməsi, kanalizasiya və yağış sularının idarə edilməsinin yaxşılaşdırılması, həmçinin sutəmizləyici qurğuların tikintisi üçün 35 milyon avro suveren kredit ayrılıb. Layihənin ümumi dəyəri isə 410 milyon avro təşkil edir. Kredit bir neçə transda veriləcək və beynəlxalq donorun təqdim etdiyi investisiya qrantı hesabına birgə maliyyələşdiriləcək. AYİB-in "Yaşıl şəhərlər" proqramı çərçivəsində həyata keçirilən layihə "Gəncə Yaşıl şəhər" Fəaliyyət Planında müəyyən edilmiş "suyun əlçatanlığı və keyfiyyəti" kimi prioritet ekoloji problemin həllinə yönəlib.

Yeri gəlmişkən, Gəncə şəhərinin su təchizatı və kanalizasiya infrastrukturunun yaxşılaşdırılması layihəsi hökumət üçün mühüm əhəmiyyət kəsb edir. Layihə başa çatdıqdan sonra Gəncə şəhəri fasiləsiz su təchizatı və kanalizasiya xidmətləri ilə tam təmin olunacaq, yağış sularını idarəetmə sisteminin tətbiqi sayəsində daşqın riskləri azalacaq. Layihə, həm də çirkab suların Gəncə çayına axıdılmazdan əvvəl təmizlənməsini təmin etməklə ətraf mühitə müsbət təsir göstərəcək.

Eyni zamanda, layihənin həyata keçirilməsi şəhərdə su itkisini azaldacaq və çirkab suların lazımi qaydada təmizlənməsini təmin edəcək. Bu da "yaşıl iqtisadiyyat"a keçidə mühüm töhfə verəcək. Layihənin keyfiyyətli idarə edilməsini dəstəkləyəcək korporativ idarəetmə üzrə Fəaliyyət Planı da hazırlanacaq.

# BP ilə yeni hədəflər müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov və Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəflə BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel arasında səmərəli əməkdaşıq və birgə fəaliyyət istiqamətlərinin şaxələndirilməsi barədə müzakirələr aparılıb.**



M.Cabbarov "X" hesabında bununla bağlı bildirib: "Davos İqtisadi Forumu çərçivəsində Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəflə birlikdə BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel ilə görüşmək xoş oldu. Şirkətin "yaşıl" enerji keçidində fəal təmsilçiliyi, ölkəmizlə səmərəli əməkdaşlığı və birgə fəaliyyət istiqamətlərinin şaxələndirilməsi barədə müzakirələr apardıq", – paylaşımda qeyd olunub.

**Sürətlə dəyişən qlobal mühitdə Azərbaycan rəqəmsal transformasiyanı iqtisadi artımın əsas amili kimi görür və həm yerli, həm də beynəlxalq investisiyalar üçün cəlbedici mühit yaratmaq məqsədilə səmərəli tədbirlər həyata keçirir.**

# Rəqəmsal investisiya iqtisadi artımın cəlbedici amilidir

## *Dünya İqtisadi Forumu bu sahədə ölkəmizin uğurunu təqdir edib*



Bu barədə Dünya İqtisadi Forumunun (DİF) rəqəmsal investisiya cəlbediciliyi ilə bağlı hesabatında qeyd olunub. Bildirilib ki, Azərbaycanda reallaşdırılan "Digital FDI" layihəsi bir sıra strateji görüşlərlə başlayıb. Bu çərçivədə Azərbaycanın rəqəmsal iqtisadiyyatında fəaliyyət göstərən yerli və beynəlxalq müəssisələr arasında aparılan sorğular və müsahibələr bazar dinamikası, qarşıda duran çağırışlar və potensial imkanlar haqqında ətraflı məlumat əldə etməyə şərait yaradıb.

Hesabatda vurğulanır ki, "Digital FDI" təşəbbüsü Azərbaycanın innovasiya və sahibkarlıq mühitinə mühüm təsir göstərib. Keçirilən seminarlar bilik mübadiləsini təşviq etməklə yanaşı, yerli biznesin qlobal rəqəmsal transformasiya tendensiyalarına uyğunlaşmasına strateji dəstək verib. Şirkət və startaplar rəqəmsal hazırlıq səviyyələrini qiymətləndirmək, inkişaf istiqamətlərini müəyyənləşdirmək və praktik tövsiyələr almaq imkanı qazanıb ki, bu da onların investisiya cəlbetmə və fəaliyyətlərini genişləndirmə potensialını artırıb.

Hesabatda, həmçinin "InvesTech" kalkulyatorunun yaradılması qeyd olunur. Bu alət rəqəmsal investisiya mənzərəsi haqqında şəffaf məlumat təqdim edərək, investisiya qərarlarının qəbulunu sadələşdirmək məqsədi daşıyır. "InvesTech" kalkulyatoru layihənin strategiyasının vacib hissəsidir və əlavə xarici investisiyaların cəlb olunmasına şərait yaradır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun fikirlərinə də hesabatda yer ayrılıb. Nazir vurğulayıb ki, 2024-cü ilin iyun ayında yayımlanan Dünya İqtisadi Forumunun "IDEA: Investing in the Digital Economy of Azerbaijan" təşəbbüsü Azərbaycanın startaplar və innovasiyalar üçün əlverişli mühit yaratmaq sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.

Hesabatda bildirilir ki, xarici investisiyaların cəlb edilməsi, özəl sektorun stimullaşdırılması və rəqəmsallaşmanın inkişafı Azərbaycan üçün sosial-iqtisadi inkişaf baxımından böyük əhəmiyyət kəsb edir.

# 403 nəfərə 967 min manat sağlamlıq ödənişi verilib

**"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkə ərazisində baş vermiş sığorta hadisələri nəticəsində icbari sığorta qanunvericiliyində nəzərdə tutulmuş sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olmadıqda sağlamlığına zərər dəyən üçüncü şəxslərə kompensasiya ödənişi İcbari Sığorta Bürosu tərəfindən həyata keçirilir.**



Qurumdan verilən məlumata görə, 2024-cü ildə 320 sığortasız və 19 naməlum nəqliyyat vasitəsinin iştirakı ilə baş vermiş 339 yol-nəqliyyat hadisəsi üzrə kompensasiya ödənilib. Hesabat dövründə 252 şəxsin sağlamlığına vurulmuş müxtəlif dərəcəli xəsarətlərə görə 327 min 925 manat, 16 şəxsin əmək qabiliyyətini tam və ya qismən itirməsinə (əlillik) səbəb olmuş xəsarətlərə görə 41 min manat və 135 şəxsin ölümü ilə nəticələnmiş hadisələr üzrə 597 min 634 manat məbləğində ödənişlər həyata keçirilib. Bütövlükdə isə, ilə ərzində ödənilmiş 966 min 559 manat kompensasiya 403 şəxsi əhatə edib.

İcbari Sığorta Bürosundan bildirilib ki, kompensasiya ödənişi üçüncü şəxsin sağlamlığına naməlum və ya oğurlanmış avtonəqliyyat vasitəsilə zərər vurulduqda, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqaviləsi mövcud olmayan şəxs tərəfindən üçüncü şəxsin sağlamlığına zərər vurulduqda və sığorta qanunvericiliyində nəzərdə tutulmuş sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olmadıqda təmin edilir.

# Metro eskalatorlarının 90 faizi yenilənib

**Bakı Metropoliteninin stansiyalarında sərnişinlərə göstərilən xidmətin yaxşılaşdırılması məqsədilə mühəndis-texniki qurğular müntəzəm şəkildə yenilənir. Artıq stansiyalardakı eskalatoların 90 faizə yaxını tamamilə yeni nəsil analoqları ilə əvəz edilib. Bu barədə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti məlumat yayıb.**



Bildirilib ki, çoxfunksiyalı diaqnostika kompleksi isə ən mühüm yeniliklərdən biri kimi metropolitendə təhlükəsizliyin daha da artırılması və infrastrukturun fəaliyyəti baxımından yeni standartları müəyyən edib. Metropolitendə qatarların hərəkətinin əsas təminatçısı olan enerji sisteminin dayanıqlığının artırılması, texniki təhlükəsizlik tələblərinin təmin edilməsi və yeni standartların tətbiqi baxımından 4 yarımstansiya tikilib, 6-sı tamamilə yenidən qurulub.

"Enerji təhlükəsizliyi baxımından hər 3 xətti əhatə edən 21 dizel-generator quraşdırılmaqla, enerji verilişində fasilələr olduqda, hətta minimal tələblər çərçivəsində qatarların da hərəkətini təmin edən alternativ mənbə yaradılıb. Son 20 ildə Yaşıl və Bənövşəyi xətlər üzrə 7 yeni stansiya inşa edilib. Metropoliten üçün xətlərin fəaliyyətini təmin edən nəhəng infrastruktur kimi, "Xocəsən" elektrik deposu isə nəinki müstəqillik dövründə, ümumilikdə, Bakı metrosunun 58 illik tarixində yetişdirilmiş yerli mütəxəssislərin mühəndis-texniki bilik və bacarığının əyani nümayişidir. Bundan savayı, dərin özüllü 2 stansiyanın ikinci giriş-çıxışları inşa edilib", – deyə məlumatda bildirilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Lavrovologiya”nın Rusiya ermənipərəstlərinə təsiri

## *Yaxud “Lazarevçilər”in sərsəm bəyanatına sözardı*

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında Azərbaycanın ölkəsinə məxsus hərbi helikopteri vurmasını xatırladanda hər şey məlum idi. Məlum idi ki, rəsmi Moskva 2020-ci ilin 44 günlük müharibəsi gedişində baş vermiş olayın üzərinə siyasi sərmayə yatırmaqla, hadisəni AZAL-ın sərnişin təyyarəsinin Rusiya səmasında vurulması faktı ilə eyniləşdirmək istəyir.**



Qeyd edək ki, cənab Lavrov “müqayisəsini” Azərbaycan-Rusiya münasibətlərinin rəvanlığı və bütün məsələlərdə qarşılıqlı anlaşmanın mövcudluğu prizmasından aparmışdı. Əslində, təxminən bunu demək istəmişdi: Biz təyyarəni vurmuşuqsa, siz də helikopteri vurmuşdunuz. Müvafiq olaraq, biz sizə keçmişdiksə, göz yummuşduqsa, siz də bizə keçin və göz yumun. İndi isə Lavrovun düşüncəsindəkini, amma dilə gətirmədiyini deyək: Bizim üçün öz vətəndaşımızın, insanımızın canı cəhənnəmədir, siz də elə davranın! Amma söhbətimiz Lavrovun, belə demək mümkünsə, qəddar diplomatik subliminalizmi ilə bağlı deyil. Diqqət yetirəcəyimiz başlıca məsələ onun apardığı “paralelin” Rusiyanın ermənipərəst dairələri üçün mühüm anti-Azərbaycan tezisinə çevrilməsidir.

Əlqərəz, Beynəlxalq rus-erməni “Lazarev Klubu” adlanan sərsəmlər yığınından ibarət təşkilat Azərbaycan ərazisində hərbi cinayətlər törətməkdə ittiham olunan ermənilərin Bakıda davam edən məhkəmə prosesi ilə bağlı bəyanat yayıb. Bəyanat barədə anonsu isə iki gün əvvəl Rusiyanın baş ermənipərəsti, Dövlət Dumasının MDB ölkələri və xaricdə yaşayan həmvətənlərlə iş Komitəsi sədrinin birinci müavini Konstantin Zatulin vermişdi. Sözügedən bəyanat da demək olar, Zatulinin səsləndirdiyi cəfəngiyyatın təkrarıdır. Amma bir qədər fərqli formada.

Beləliklə, Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı etirazını bildirən “Lazarev klubu” iddia edib ki, proses, guya insan hüquqlarının və beynəlxalq hüquq normalarının pozulmasıdır. Rusiyanın başıpozuq erməni və ya ermənipərəst mövcudiyyətinin irəli sürdüyü şablon sabun köpüyünün heç bir əhəmiyyəti olmasa da, başlıca məqam ölkədə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək yolu tutan qruplaşmanın olmasıdır. Çünki klub məhkəməsi keçirilən ermənilərin Azərbaycan hakimiyyətinin 2023-cü ildə “Qarabağa təcavüzü” nəticəsində əsir götürüldüklərini iddia edib. Görəsən, bəyanatı hazırlayanlar bilmirlərmi ki, Rusiya Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyıb? Əlbəttə ki, bilirlər, özü də çox yaxşı.

Amma “Lazarev klubu”nun “cəsarəti”, necə deyərlər, göydəndüşmə deyil. Təşkilatdakılar rəsmi Moskvanın Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı oynadığı ikili rolun mahiyyətinə gözəl bələddirlər. Onlar hazırda məlum təyyarə olayı ətrafında Bakı-Moskva münasibətlərində soyuqluğun yarandığının da fərqindədirlər. Yəni, Lavrovun haqqında söz açdığımız diplomatik subliminalizminə siyasi sərmayənin yatırılması buna görədir. Məhz bu səbəbdəndir ki, “Lazarevçilər” məhkəməsi davam edən ermənilərin Azərbaycanda, guya mühakimə olunmadan cinayətkar sayılmalarını qabartmaqla yanaşı, 2020-ci ildə ölkəmizin hərbçiləri tərəfindən Rusiya helikopterinin vurulmasını da yada salırlar.

“Lazarev klubu” Lavrovun informasiya kirliliyi yaratmaq naminə ortaya atdığı tezisi daha azğın formada “genişləndirməyi” yaddan çıxarmayıb. Klub davam edən məhkəmə prosesini siyasi əhəmiyyət daşıyan aksiya, Azərbaycan rəhbərliyinin və azərbaycanlıların ermənilərə qarşı nifrətinin göstəricisi olaraq qələmə verməklə, təyyarənin vurulması ilə helikopterin vurulmasını eyniləşdirməklə kifayətlənməyib, həmçinin, ortaya son dərəcə anarxist yanaşma qoyub. Həmin yanaşmanın nədən ibarət olduğundan söz açacağıq.

Ancaq əvvəlcə xatırlayaq ki, Azərbaycan tərəfindən Rusiya helikopteri Naxçıvan istiqamətində Ermənistan–Azərbaycan sərhədinin Ermənistan tərəfində vurulmuşdu. Yuxarıda da bildirdik ki, hadisə baş verəndə ölkəmiz Ermənistanla müharibə aparırdı və müharibənin Naxçıvan cəbhəsində olacağına dair proqnozlar var idi. O zaman sual yaranır: Belə bir həssas durumda Rusiya helikopterinin sərhədə yaxın hissədə nə işi var idi? Bəlkə, bu, Rusiyanın Ermənistana müttəfiqlik münasibətlərindən qaynaqlanırdı? Ola bilərmi ki, Ermənistan ərazisindən qalxan hərbi helikopter ordumuzun Naxçıvan istiqamətindəki mövqelərini atəşə tutmaq istəyirdi?

Əlbəttə, biz bu yazıda təfərrüatları açıqlamaq, nələrisə şübhələndirmək niyyətində deyilik. Rəsmi versiya budur ki, Azərbaycan Rusiyaya məxsus hərbi helikopteri səhvən vurub və buna görə lazımi addımları atıb. İndi “Lazarev klubu” bəyan edir ki, həmin addımlar az imiş. Guya rəsmi Bakı yalnız üzr istəməklə kifayətlənib, təzminat ödəməyib. Hesab edirik ki, bu məqamı “yenilik” saymaq olar. Azərbaycan təzminat ödəməyib və Rusiya da illərdir buna susub? Kiməsə inandırıcı gəldimi? Təbii ki, yox. Digər tərəfdən, tutalım, belə bir hal olub. O zaman ermənipərəstlərəmi qalıb bu barədə söz açmaq, detallara varmaq?

Amma Rusiyanın Xarici işlər naziri təyyarə olayı ilə helikopter olayı arasında “paralellər” apara bilirsə, ermənipərəst klubun başıpozuqlarına nə deyəsən? Nəzərə alaq ki, bu şovinist-revanşist yığımı üçün müharibə bitməyib. Bitməyib ki, onlar 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirləri əsnasında Qarabağda rus sülhməramlılarının həlak olmaları faktını da xatırladırlar. Yeri gəlmişkən, 44 günlük müharibənin son günündə Rusiyaya məxsus helikopter vurulur, antiterror tədbirləri başa çatar-çatmaz sülhməramlılar Azərbaycan əsgərinin gülləsinə tuş gəlirlər. Qəribə deyilmi?

Nə isə “Lazarevçilər” o qədər azğınlaşıblar ki, indi də müharibənin bitmədiyini bildirirlər. Yəni Lavrovun subliminal paralellərini təkrarlayan klub üzvləri bəyanatlarına belə bir fikri daxil ediblər: Müharibə müharibədir! Başqa sözlə desək, savaşda hər yol məqbuldur. Deməli, Azərbaycan Rusiyanın hərbi helikopterini vurubsa, Rusiyanın da Azərbaycanın sərnişin təyyarəsini vurması mümkündür. Və deməli, Kremlin baş diplomatı yaratdığı informasiya kirliliyinin nəticəsi ilə “öyünə” bilər. Belə davam etsə, Rusiya ermənipərəstləri Lavrovun sözündən tutub Azərbaycana müharibə də elan edəcəklər. Nə desən olar!

“Lazarev klubu”nun anti-Azərbaycan mahiyyətli bəyanatındakı digər məsələlərin üzərində dayanmağa lüzum görmürük. Sonda bir məqamı vurğulayaq ki, məlum təyyarə olayı ilə bağlı Azərbaycan-Rusiya münasibətlərində yaranmış gərginlikdən ikincinin ermənipərəst dairələri istifadə edirlər. “Şimal”ın erməni sevdalılarının hərəkətə gəlmələri bundan qaynaqlanır. Yaxşı olar ki, mövcud məqam rəsmi Moskvanı düşündürsün. Düşündürsün və Rusiyanın bəzi dairələrinin erməni amili üzərindən Azərbaycana yönəlik hərəkətlərinə dair müvafiq tədbir görsün. Əlbəttə, Kreml dünyanın Rusiyadan üz döndərdiyi bir vaxtda Ermənistanı yenidən öz orbitinə qaytarıb ondan dost düzəltmək istəyirsə, rəsmi İrəvanın ötən 5 ildən artıq zaman kəsiyində davam etməkdə olan anti-Rusiya hoqqabazlığını dayandıracağına ümid bəsləyəcək qədər sadəlövh durumdadırsa, heç bir tədbir görməyə, Lavrov isə “Lazarevçilər” üçün qatı açılmamış “diplomatik tezislər” uydura bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 10**

**Bakı şəhəri, 21 yanvar 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); 2024, № 9, maddə 1067, № 11, maddə 1251) ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7.1.8-ci, 8.1.11-ci və 14.1.6-cı yarımbəndlərdə “İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında” sözləri “Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında” sözləri ilə əvəz edilsin, həmin yarımbəndlərin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin.

**2.** 7.1.9-cu, 8.1.12-ci, 14.1.7-ci yarımbəndlər ləğv edilsin.

**3.** Aşağıdakı məzmunda 8.1.8-1-ci yarımbənd əlavə edilsin:

“8.1.8-1. sağlam təhsilalanların məktəbə qəbul tarixinə aşağıdakı kateqoriyalardan olan uşaqları əhatə etməsi:

1. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri olan uşaqlar;

2. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;

3. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olan uşaqlar:

3.1. orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

3.2. işsiz kimi qeydiyyatda olanlar;

3.3. əmək pensiyası yaşına çatanlar;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 11**

**Bakı şəhəri, 22 yanvar 2025-ci il**

**“Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi –AZPROMO tərəfindən ixracatçılara və investorlara göstərilən xidmətlərin siyahısı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və “İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 1411 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO tərəfindən ixracatçılara və investorlara göstərilən xidmətlərin siyahısı” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 12**

**Bakı şəhəri, 22 yanvar 2025-ci il**

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1188-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1188-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003,

№ 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 dekabr tarixli 534 nömrəli və 29 dekabr tarixli 558 nömrəli qərarları) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın 3.2-ci bəndinin ikinci abzasının ikinci cümləsinə “arayış” sözündən sonra “və ya konsulluq idarələrində nikaha daxil olmaq istəyən Azərbaycan Respublikası vətəndaşlarının konsulluq idarəsinin akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində tibbi müayinədən keçməsi barədə arayış” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015,

№ 5, maddə 610 (Cild I); 2024, № 1, maddə 124) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası”nın 1.1-ci bəndinə “nikaha” sözündən əvvəl “Azərbaycan Respublikası Ailə Məcəlləsinin

13.5-1-ci maddəsində göstərilən hal istisna olmaqla,” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 13**

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının yaradılması, Koordinasiya Şurasının iş Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1786 (Cild I) ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının tərkibi”nin “Koordinasiya Şurasının sədri” hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Baş prokuror Qaradağda vətəndaşları dinləyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, yanvarın 23-də Baş prokuror Kamran Əliyev Qaradağ Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Qaradağ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 25 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilən cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

# Ermənistan hökumətinin irqçi siyasəti qınanılıb

**Ermənistanın Xarici Kəşfiyyat Xidməti 2025-ci il yanvarın 23-də dərc etdiyi illik hesabatında Qərbi Azərbaycan mövzusunu hərbi-siyasi risk kateqoriyasında verib. Bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.**

Sənəddə deyilir: “Etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz şəraitdə və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq arzularını təhlükəsizlik riski kimi təqdim etmək bu haqq işini təhrif etməyə xidmət göstərir və Ermənistanın multietnikliyi özünə təhdid kimi gördüyünü sübuta yetirir. Ermənistanın bu yanaşması onun onilliklərdən bəri yürütdüyü irqçi siyasətinin davam etdiyini göstərir”.

Bəyanatda, həmçinin vurğulanıb: “Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayır və ondan Qərbi azərbaycanlıların qayıdış hüququnu təmin etməyi tələb edir”.

Vaqif Şadlinski – 85

# Şadlılar nəslinin təbib oğlu

**Ölkəmizin səhiyyə və elmi-mədəni ictimaiyyəti Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının müdiri, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Azərbaycan Morfoloqlar Assosiasiyasının sədri, Beynəlxalq Morfoloqlar Assosiasiyası Koordinasiya Şurasının, Avropa Təbiət Elmləri Akademiyasının və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi və Əməkdar həkim, tibb elmləri doktoru, professor Vaqif Şadlinskinin anadan olmasının 85 illiyini sevgi-sayğı ilə qeyd edir.**

Görkəmli alimin ömür yolu mübarizə və zəhmətlə mənalanıb. Bunu onun zəngin və şərəfli bioqrafiyası aydın göstərir. 1940-cı il yanvarın 24-də Vedi rayonunun Böyük Vedi kəndində ziyalı ailəsində dünyaya göz açan Vaqif Şadlinskinin ailəsi 1948 –1950-ci illər erməni deportasiyasına məruz qalaraq məcburi köçkün həyatı yaşayıb. Atası Bilas müəllim əvvəl doğma yurdundan perik salınandan sonra isə Şəmkirin Leninkənd qəsəbəsindəki (indiki Çinarlı) orta məktəblərdə direktor vəzifəsində çalışıb.



Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin yaxın qohumu olan Bilas Şadlinski dövrünün bacarıqlı pedaqoqlarından, dəyərli ziyalılarından biri kimi tanınıb. Anası Gülüzar xanım isə 8 uşaq böyüdüb, tərbiyələndirib.

Mənsub olduğu şəcərənin – şadlıların Qərbi Azərbaycan qolundan bəhs edən Vaqif Şadlinski bildirir ki, XVII – XIX əsrdə bu tayfanın bir qolu Gəncəbasarın Şadlı kəndindən İrəvan xanlığına köçüb və Vedi bölgəsində məskunlaşıb. Şadlı nəslinin igidləri daşnak soyqırımları zamanı Xoy və Mərəndə köçmüş, sonradan Azərbaycanın müxtəlif bölgələrinə qayıtmışlar.

Şadlinski soyadının yaranma tarixi isə 1808 və 1827-ci illərə aiddir. Nəslin bir qolu Binnətalı sultandan başlayır. Onun böyük oğlu Aslan sultan Şadlı Vaqif müəllimin ulu babasıdır. 1808-ci ildə Aslan sultan Vedi Çuxurunun rəisi olub.

Vaqif Şadlinskinin atası Bilas müəllim kitaba, elmə sonsuz sevgi ilə bağlı olub. Tarixi araşdırmalara da böyük maraq göstərib. Yaratdığı zəngin kitabxanada da ermənilərin qonşu ölkələrdən Azərbaycana nə vaxt, nə səbəbə köçürülmələrindən, terrorçu Daşnaksütyun partiyasının xalqımıza qarşı düşmənçilik fəaliyyətindən, törətdikləri qırğınlardan, əsassız torpaq iddialarından bəhs edən qəzet-jurnal məqalələri, broşüralar, kitablar və digər sənədlər xüsusi yer tutub. Yeniyetmə Vaqifin kitaba, elmə, tarixə dərindən bağlılığı həm də bu zəngin mənbədən qaynaqlanıb.

Əməkdar elm xadimi Vaqif Şadlinski 1970-ci ildə o vaxtkı Tibb İnstitutunun insan anatomiyası kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayıb. İlk günlərdən nizam-intizamı, yeniliyə can atması ilə diqqət çəkib. Səmimiyyəti, tədris, təlim-tərbiyə işlərinə ürəkdən bağlanması ilə əməkdaşların, eləcə də kafedra müdiri, professor Kamil Balakişiyevin hörmət və rəğbətini qazanıb.

Vaqif müəllim həmin kafedranın müdiri vəzifəsinə seçildiyi 1995-ci ildən etibarən tədrisin dünyanın inkişaf etmiş ali məktəblərinin kəmiyyət və keyfiyyət göstəriciləri səviyyəsində qurulması üçün universitetdə aparılan islahatlarda, həyata keçirilən tədbirlərdə yaxından iştirak edib. Təhsil, təlim-tərbiyə sahəsində əldə etdiyi uğurlara görə dəfələrlə ATU rektorluğunun və Səhiyyə Nazirliyinin fəxri fərmanlarına layiq görülüb.

Tanınmış alim-pedaqoq Azərbaycan Tibb Universitetində çalışdığı dövrdə elmi fəaliyyəti ilə yanaşı, ictimai işlərdə də fəallığı ilə seçilib. O, müalicə-profilaktika fakültəsinin dekan müavini, universitetin ümumi işlər üzrə prorektoru, həmkarlar ittifaqı komitəsinin sədri, tədris işləri üzrə prorektor vəzifələrində çalışarkən prinsipallığı, humanistliyi ilə hörmət qazanıb. İllər ötdükcə Vaqif müəllimin elmi-pedaqoji, ictimai-siyasi fəaliyyətinin miqyası da genişlənib. Professor ölkəmizdə morfologiya elminin insan anatomiyası sahəsində elmi axtarışlarını və bu fənnin tədrisini onun spesifikasına uyğun daim təkmilləşdirərək yüksək nəticələr qazanıb, bu sahəni beynəlxalq aləmdə layiqincə təmsil edib.

Vaqif Şadlinski kafedra müdiri kimi dünyanın bir sıra ali tibb məktəblərinin insan anatomiyası kafedralarının müdirləri, morfoloji elmlərlə məşğul olan görkəmli tibb alimləri ilə rəsmi müqavilələr imzalamağa, yeni layihə və proqramlar hazırlanmağa, kafedranın beynəlxalq əlaqələrini genişləndirməyə nail olub. Onun İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin insan anatomiyası kafedrasının müdiri, akademik M.R.Sapinlə, Moskva Dövlət Tibbi-Stomatologiya İnstitutunun insan anatomiyası kafedrasının müdiri, akademik L.L.Kolesnikovla, akademik D.V.Bajenovla, Tbilisi Morfologiya İnstitutunun direktoru, akademik N.A.Cavaxişvili ilə, Xarkov Dövlət Tibb İnstitutunun insan anatomiyası kafedrasının müdiri, professor V.V.Bobinlə, eləcə də Almaniyadan dünya şöhrətli anatom-alim, professor A.Şumaxerlə, Gürcüstandan olan akademik T.Gibradze, Kazan, Ufa, Mahaçqala alimləri, Türkiyənin bir sıra universitetlərinin tibb fakültələrinin anatomiya kafedralarının mütəxəssisləri ilə yaratdığı dostluq və əməkdaşlıq əlaqələri ölkəmizdə morfologiya elminin müasir tələblər səviyyəsində dinamik inkişafına güclü təkan verib.

Vaqif müəllimin pedaqoji fəaliyyətindən söhbət açarkən bir məqama da xüsusi diqqət yetirmək istərdik. Bu, böyük alimin rəhbərlik etdiyi kafedranın hazırda işinin müasir tələblər səviyyəsində yenidən qurulması ilə bağlıdır. Xatırladaq ki, professorun səyi ilə kafedranın nadir tədris muzeyinin sahəsi son illərdə xeyli genişləndirilib və yeni eksponatlarla zənginləşdirilib. Tələbələrin təhsili və əməkdaşların fəaliyyəti üçün burada hər cür şərait yaradılıb, bütün dərs otaqları müasir avadanlıqla təchiz olunub.

Təhsildə ən yeni tədris metodlarından--kompüter otaqlarından, animasiyalardan, son innovativ texnologiyalardan, müxtəlif proqramlardan düşünülmüş şəkildə geniş istifadə edilir. Anatomiyanın bütün sahələri üzrə Azərbaycan, rus və ingilis dillərində çoxsaylı dərslik, atlas, anatomik terminologiya kitabları, dərs vəsaitləri, tədris-metodik ədəbiyyat yazılıb və nəşr olunub. Kafedrada morfoloqların beynəlxalq elmi konfranslarının keçirilməsinin təşkili və belə tədbirlərin materiallarının toplu şəklində çap olunmasının təmin edilməsi diqqət mərkəzində saxlanılıb.

Alimin kafedraya rəhbərlik etdiyi dövrdə onun elmi məsləhətçiliyi və rəhbərliyi altında neçə-neçə elmlər doktoru, tibb üzrə fəlsəfə doktoru hazırlanıb, 500-ə yaxın elmi işi, o cümlədən çoxsaylı monoqrafiya, dərslik və dərs vəsaiti, onlarca elmi-kütləvi məqaləsi işıq üzü görüb. Akademik Yusif Məmmədəliyev mükafatı, Hacı Zeynalabdin Tağıyev mükafatı, BMT-nin Təltiflər Komitəsinin I dərəcəli Hippokrat ordeni, Albert Şvaytzer mükafatı, Robert Kox medalı, UNESCO-nun Beynəlxalq Akademiyasının qızıl medalı və s. bir sıra beynəlxalq mükafat və təltiflərə layiq görülüb. Vaqif Şadlinski Azərbaycanda və bir sıra xarici ölkələrdə çıxan tibbi jurnalların redaksiya heyətlərinin üzvü kimi də yorulmaq bilmədən fəaliyyət göstərir.

İdarəçilik qabiliyyəti, tədqiqatçılıq əzmi və insani keyfiyyətləri ilə fərqlənən professor Vaqif Şadlinski bu gün də səmərəli elmi-pedoqoji fəaliyyətini gənclik enerjisi ilə davam etdirir. Bu nurlu insanı, tibb alimini 85 illik yubileyi münasibətilə səmimi təbrik edir, ona daha uzun ömür və elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq.

*Mübariz SƏFƏROV*

# Zaman və məkanın əlvan rəmzləri



**Azərbaycan Milli İncəsənət Muzeyində Əməkdar rəssam, Naxçıvan Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın "Çağırış – zaman və məkan boşluğunda itmiş simvollar" adlı qrafika sərgisi açılıb.**

Tanınmış ictimai-mədəni xadimlər, millət vəkilləri, ziyalılar və çoxsaylı qonaqların iştirak etdikləri mərasimdə çıxış edən muzeyin direktoru Şirin Məlikova, Xalq rəssamı Səlhab Məmmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, deputatlar Hicran Hüseynova və Elnarə Akimova Ülviyyə xanımın müasir Azərbaycan təsviri sənətində seçilən simalardan olduğunu vurğulayıblar. Sonra Ülviyyə Həmzəyeva sərginin yüksək səviyyədə təşkili üçün rəhbərliyə dərin təşəkkürünü bildirərək, qonaqları sərgi ilə tanış olmağa dəvət edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə açılan sərgidə rəssamın 50-dən çox qrafika əsəri nümayiş olunur. Ekspozisiyada sərgilənən əsərlərinin fəlsəfi mahiyyəti rəssamın dünyaya göz açdığı, boya-başa çatdığı qədim və misilsiz tarixə malik Naxçıvan diyarının ruhu ilə səsləşir. "44 günlük Vətən müharibəsindəki Şanlı Qələbə", "Qərbi Azərbaycanın tarixi-mədəni irsi", "COVID 19 pandemiyası", "Yuxu və gerçək bir arada" kimi əsərlər rəssamın gərgin yaradıcılıq axtarışlarının nəticəsində ərsəyə gəlib.

Sərgi 28 fevral tarxinədək ziyarətçilər üçün açıq olacaq.

*Fidan SALMANOVA*
*XQ*

# Əmək hüququ toxunulmazdır

**Dövlət Əmək Müfəttişliyi Xidməti 2024-cü ildə vətəndaş müraciətlərini araşdırarkən 61 işçinin əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini müəyyən edib.**




Xidmətin qanunvericiliyə əsasən gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar. Müraciətlərin araşdırılması zamanı xidmət həmçinin işəgötürənlər tərəfindən sosial xarakterli ödənişlərdən ibarət 213 min manatdan çox məbləğdə vəsaitin işçilərə ödənilməsinin gecikdirildiyini müəyyən edib. Bununla əlaqədar görülən tədbirlər nəticəsində həmin vəsait işəgötürənlər tərəfindən işçilərə ödənilib.

Ödənilən vəsaitin 88,6 faizi əməkhaqlarından, qalan hissəsi işəgötürənlər tərəfindən ödənilməli olan müavinət və kompensasiyalardan, zərərə görə ödənclərdən ibarət olub.

*Z.HÜSEYNOVA*
*XQ*

# Parisin keyfiyyətsiz medalları – kimdir müqəssir?

**Təşkilatçılar 2024-cü il Paris Olimpiya Oyunlarının əlamətdar hadisə olacağını vəd etmişdilər, lakin aylar sonra olimpiada qalmaqalla gündəmə gəlir. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) mükafatçılara verdiyi medallar keyfiyyətsiz olduğuna görə sərt tənqidlərə məruz qalır.**

Pas ləkələri, səthin aşınması və metalın ilkin parıltısı ilə ziddiyyət təşkil edən tutqun parıltı tədricən ortaya çıxır. Olimpiya medalları sadəcə metal parçaları deyil, onlar ən yüksək idman nailiyyətlərinin simvollarıdırlar. Bu medallar ən yaxşı materiallardan və yüksək ustalıqla hazırlanmalı olduğu halda, görünür, BOK məsələyə ciddi yanaşmayıb. Fransada isə bu mövzu, az qala, milli qürur məsələsinə çevrilib. Paris olimpiadasının medallarının getdikcə yararsız hala düşməsi, bunun ölkələrinin nüfuzuna mənfi təsir etdiyini düşünən fransızları da şoka salıb.

Böhran BOK-u keyfiyyətini itirən medalların dəyişdiriləcəyi ilə bağlı bəyanat yaymağa məcbur edib. Məlumata görə, 100-dən çox idmançı medallarını geri qaytarmaq üçün BOK ilə əlaqə saxlayıb. Paris-2024 Təşkilat Komitəsinin medallarla bağlı şikayətləri qiymətləndirmək və onların xarab olmasının səbəblərini müəyyənləşdirmək üçün istehsalçı müəssisə - "Monnaie de Paris" ("Paris Sikkəxanası") ilə sıx təmasda olduğu bildirilir. "Keyfiyyətsiz medallar sistematik olaraq dəyişdiriləcək və eyni görünüşdə yenidən hazırlanacaq. Əvəzetmə prosesi yaxın həftələrdə başlanacaq", - BOK-un açıqlamasında belə deyilir.

Hələ Olimpiya oyunları zamanı suya tullanmada mükafatçılar arasında yer alan Yasmin Harper idmançıların hətta Parisi tərk etmələrindən əvvəl medalların yararsız hala düşməyə başladığını bildirmişdi. Ötən olimpiadada fəxri kürsüyə qalxan ilk britaniyalı olan Harper bürünc medalının "bir az qaraldığını" və "solduğunu" söyləmişdi.

İki nəfərlik qayıqda bürünc medal qazanan irlandiyalı avarçəkənlər Deyr Linç və Filip Doyl isə ciddi korlanmanın araşdırılması üçün medallarını təşkilatçılara qaytarıblar. Linç deyir: "Mən medalımı özümdə saxlamaq istəyirdim, amma araşdırmaq üçün onu götürdülər. Onlar nəyin yanlış edildiyini bilmək istəyirlər".

Doyl isə əlavə edib: "Mənim medalım, demək olar ki, dağılıb".

"Həm BOK, həm də Fransa keyfiyyətsiz medallara görə məsuliyyət daşıyırlar. Bu, Hindistanda baş versə idi, bütün dünya bizdən danışardı. Belə məsələlərə etinasız yanaşmaq olmaz", - anonimlik şərti ilə danışan hindistanlı olimpiya mükafatçısı bildirib.

Azərbaycanın Paris-2024 mükafatçılarının da eyni problemlə üzləşmələri barədə xəbərlər yayılmağa başlayıb. Əvvəlcə taekvondoçu Qaşım Maqomedovun gümüş və yunan-Roma güləşçisi Həsrət Cəfərovun bürünc medallarının yararsız hala düşdüyü bildirilirdi. Sonra cüdo üzrə olimpiya çempionu Zelim Kotsoyev, gümüş mükafat qazanan boksçu Loren Alfonso Dominges və bürüncə sahib olan sərbəst güləşçi Giorgi Meşvildişvilinin medallarının da keyfiyyətini itirməsi barədə xəbərlər yayılıb.

Onlardan başqa, Paris-2024-də Hidayət Heydərovun cüdoda qızıl, Maqomedxan Maqomedovun isə sərbəst güləşdə bürünc medal qazandıqlarını da xatırladaq.

***

"Monnaie de Paris" BOK-un "qüsurlu" terminindən istifadəsini qəbul etməyərək, bunun əvəzinə medalları "zədələnmiş" kimi təsvir edib ki, bu da məsələ ətrafında ciddi gərginliyin olduğunu vurğulayır. Paris olimpiadası üçün ümumilikdə 5084 qızıl, gümüş və bürünc medal hazırlanıb. Məlumata görə, onların istehsalı ən azı 30 mərhələdən ibarət olub və Fransanın ən qədim və ən prestijli qurumlarından biri sayılan "Monnaie de Paris"in "nou-hau"suna əsaslanıb.

1864-cü ildə II Karl tərəfindən əsası qoyulan bu dövlət müəssisəsi vaxtilə bir çox Olimpiya oyunlarına da medallar hazırlayıb. Paris-2024-ün medalları ilə bağlı narazılıqlar artdıqca kəskinləşən böhran





"Monnaie de Paris"də istehsala cavabdeh olan yüksək vəzifəli şəxslərin istefası ilə nəticələnib. İşdən çıxarılanlar arasında yanvar ayında istefa verən sənaye direktoru Jaki Frehel, oktyabr ayından bəri işdə görünməyən istehsal direktoru Erik Matte və dekabr ayında ayrılan keyfiyyət şöbəsinin rəhbəri Elen Jüton da var.

"Monnaie de Paris"dən bildiriblər ki, onlar avqust ayında ilk dəyişdirmə müraciətlərindən bəri yararsız medallar məsələsinə çox ciddi yanaşıb və daxili komandalarını səfərbər ediblər. O vaxtdan bəri şirkət laklama prosesini dəyişdirib və optimallaşdırıb. "Monnaie de Paris" idmançıların tələbi ilə bütün zədələnmiş medalları 2025-ci ilin birinci rübündə əvəz edəcəyini açıqlayıb.

Medalların tərkibinə gəlincə, BOK izah edib ki, bürünc medallar mis, qalay və sink ərintisindən hazırlanır və bu da onları nəmə və tərə qarşı həssas edir. Gümüş medallar, əksinə, bərk gümüşdən düzəldilir, qızıl medallarda isə gümüş üzərində üzlənmiş altı qram təmiz qızıl olur.

Özü də Paris-2024 olimpiadası üçün medallar təkrar emal edilmiş materiallardan, əsasən də bütün dünyanın hər yerindən insanlar tərəfindən bağışlanmış elektron avadanlıqlardan hazırlanıb. Bir vaxtlar ekoloji cəhətdən təmiz yanaşması ilə təriflənən bu təşəbbüs indi korlanma hadisəsi ilə bağlı araşdırılır.

Yeri gəlmişkən, hələ ötən yay Beynəlxalq Boks Assosiasiyasının prezidenti Umar Kremlev açıq məktubunda "medalçılar müvafiq metallara uyğun mükafatlar almalıdır" deyərək və mövcud medalları "idmançıların zəhmətinə və fədakarlığına hörmətsizlik" kimi tənqid edərək BOK prezidenti Tomas Baxı dərhal istefaya getməyə çağırmışdı.

***

Böhrandakı son hadisələr medalların zamanla korlanması və xarab olmasına səbəb olan texniki problemi üzə çıxarıb. Problem medalların istehsalına az qalmış "Monnaie de Paris" rəhbərliyi tərəfindən son anda edilən dəyişiklikdən qaynaqlanıb.

Avropa direktivi əvvəllər medalların üzərinə çəkilən lakı hazırlamaq üçün istifadə edilən zəhərli komponent olan xrom trioksidin istifadəsini qadağan edib. İstehsalçılar onu yeni lakla əvəz etməli olublar ki, onu da sınaqdan keçirmək üçün kifayət qədər vaxtları olmayıb. Onlar indi medalları ideal vəziyyətdə saxlamaq və yeni tərkib üçün həll yolu tapmağa çalışır, həm də zaman keçdikcə daha çox medalın qaytarılacağını gözləyirlər.

Oyunlarla əlaqəli sponsor və brendlər də öz narahatlıqlarını ifadə ediblər, çünki onların nüfuzları da tədbirin keyfiyyəti ilə bağlıdır. Belə bir böhran gələcək sponsorluq sövdələşmələrinə və ictimaiyyətin olimpiya brendinə inamına təsir göstərə bilər. Görülən müsbət işlər də Paris-2024 medallarının keyfiyyətsizliyi səbəbindən kölgədə qalır.

Maraqlıdır ki, yüzdən çox idmançı doqquz il əvvəl Rio olimpiadasında qazandıqları medalların da sonradan keyfiyyətsizləşməyə başladığını bildirib. Amerikalı çimərlik voleybolu ulduzu Kerri Uolş Cenninqs qeyd edib ki, onun bürünc medalı - Parisdə olanlar kimi - paslanıb və dağılıb. Rio-2016-nın təmsilçisi Mario Andrada o vaxt təsdiqləmişdi ki, medalların altı-yeddi faizində problemlər olub. Paris-2024-də olduğu kimi, BOK və təşkilatçılar zədələnmiş medalları yeniləri ilə əvəz edəcəklərinə söz veriblər.

Paris-2024 medallarının yararsız hala düşmələri 1904-cü il Sent-Luis olimpiadasında – ABŞ ərazisində keçirilən ilk Oyunlarda verilən qızıl medalın qüsursuz uzunömürlülüyü ilə tamamilə ziddiyyət təşkil edir. O vaxtdan qalan bir medal bu yaxınlarda xatirə əşyası kimi hərracda satılıb.

Bunlar qızıl medalların verildiyi ilk Olimpiya oyunları idi və amerikalılar 96 yarışdan 78-də qalib gələrək üstünlük əldə etmişdilər. Əsasən qızılla örtülmüş gümüşdən ibarət bugünkü olimpiya medallarından fərqli olaraq, 1904-cü il medalları daha kiçik, lakin tamamilə qızıldan hazırlanmışdı və bu, onların orijinal vəziyyətini təmin edirdi. Bu, Paris-2024-də medal qazanan və medallarının oksidləşməsi ilə uğurlarının kölgədə qaldığını görən idmançılar üçün həsəd doğuracaq məqamdır. Paris-2024 təşkilatçıları keyfiyyətsiz medalları dəyişdirməyə söz verdikcə, qalmaqal müasirliyin keyfiyyət bahasına başa gəlməməsinin vacib olduğunu xatırladır – görünür, bu, BOK-un çox gec öyrəndiyi dərsdir.

*Hazırladı:*
*Rasim MÖVSÜMZADƏ*

Məmmədkazım Ələkbərli – 120

# Stalinin "qırmızı professor" adlandırdığı alim

**Ötən əsrin 30-cu illərinin "düşmən ovları", tuthatutları canının dərdindən bolşevizmi vəsf edənlərdən də yan ötməyib. Cəlladlar sanki bir şeytan fəhmi ilə onların qeyri-səmimiliyini duyur və cəzalandırılmaları üçün məqam gözləyirdilər.**



Hüseyn Cavid bu barədə yazırdı:

**Ya rəbb, bu nə dəhşət, nə fəlakət!**
**Ya rəbb, bu nə vəhşət, nə zəlalət!**
**Yox kimsədə insafü mürüvət,**
**İblisəmi uymuş bəşəriyyət?!**

Şər qüvvələrin qara caynaqlarına keçənlərdən biri də onların özlərinin tərifləyib göyə qaldırdıqları Məmmədkazım Ələkbərli olub. Şər, iblis, şeytan deyəndə 666 rəqəmi yada düşür. Bu simvol özündən 20 dəfə kiçik – 33 yaşı olan Məmmədkazımı da repressiyanın "ət maşını"na salıb məhv edəndə heç heyfsilənməyib də. Bəlkə də, növbəti qurbana görə İblisin vəsvəsəli gözü işıldayıb.

Bir qərinəlik qısa ömründə o, çox irəli gedə bilmişdi. Dərbənddə doğulub Bakı Pedaqoji İnstitutunda ali təhsil alan gənc filoloq Gəncə Vilayət Xalq Maarif Şöbəsinin müdiri, "Qızıl Gəncə" jurnalının baş redaktoru, Mahaçqalada "Dağıstan füqərası" qəzetinin yaradıcısı, "Maarif yolu" jurnalının məsul redaktoru, Moskvada Qırmızı Professorlar İnstitutunun məzunu, Azərbaycan Dövlət Universitetinin rektoru, mətbuatda müntəzəm çıxışlar edən jurnalist kimi "Kommunist" nəşriyyatının direktoru, "Ədəbiyyat qəzeti", "Bakinski raboçi", "Vışka" qəzetlərində, "Zərbəçi", "Sürət", "İnqilab və mədəniyyət", "Firqə işçisi" jurnallarında baş redaktor olub. Azərbahycan Yazıçılar İttifaqının ilk sədri seçilib.

Görkəmli ədəbiyyatşünas, tədqiqatçı Məmmədkazım Ələkbərli 22 yaşında "İdealizm və materializm və yaxud yeni fəlsəfə", 24 və 30 yaşlarında "Yeni əlifba və orfoqrafiya", "Azərbaycan ədəbiyyatı" kimi sanballı kitablar yazıb. Səs-sədası bütün ölkəni bürüyüb və... onu gözə gətirib.

Bacısı qızı Asya xanım "Mənim... üzdə "qırmızı", içdə qızıl professor dayım" adlı hekayətində yazırdı: "Xatirələrim içərisində ən acı və ən şirini Məşədi Məmməd Kazım dayımla bağlı olanlardır. Çox savadlı, ziyalı adamlardan idi mənim o bəxt-talesiz dayım. Bizim Pedaqoji İnstitutdan sonra təhsilini Moskvada davam etdirib. Xüsusi istedad və bacarığına görə bir kərə Stalin ona "Krasnı professor" deyib və onu Azərbaycan KP Mərkəzi Komitəsinə 1-ci katib təyin etmək istəyirmiş. Bu məqsədlə dayımı Moskvadan Azərbaycana göndəriblər. Gələndə elə hey susurdu. Sən demə, ürəyində bu baş vəzifəyə layiq bildiyi Mircəfərin adını Moskvada necə dilə gətirmək haqda düşünürmüş.

Mircəfər dayımın yaxın dostlarından idi. İstəyirdi onu qabağa çəksin. Nəhayət, bir kərə cəsarətə gələrək, Bağırovun təqdimatını eləyib Stalinə. Özününsə elmi araşdırmalarla məşğul olmaq istədiyini bildirib..."

Məmmədkazım Ələkbərli Moskvada Sovet Yazıçılarının 1-ci qurultayında məruzə ilə çıxış edib. Dəfələrlə "Kitabi-Dədə Qorqud"un azəri türklərinə aid dastan olduğunu söyləyib və yazıb. Digər tərəfdən o, üzləşdiyi sovetizm maneələrinin istiqamət verdiyi yollarda da məcburi addımlar atmalı olub: "Oktyabr inqilabı və Azərbaycan ədəbiyyatı", "Şura ədəbiyyatı yüksəliş yollarında", "Aprel ədəbiyyatı" kimi məqalələrin müəllifi idi.

Bağırov Mərkəzi Komitəyə rəhbər təyin olunandan sonra da onunla dostluğunu davam etdirib, tez-tez evlərinə gəlib. Amma nə bu dostluq, nə Azərbaycan dilində "Fəlsəfə" dərsliyinin ərsəyə gətirilməsi yolunda çabaları onu repressiya maşınından xilas edə bilməyib. Əksinqilabi burjua millətçi təşkilatın üzvü, sovet hökumətinə qarşı silahlı üsyandan xəbəri olan, RK(b)P və sovet hökumət rəhbərlərinə qarşı terror mövqeyində dayanan şəxs kimi həbs edilib və 1 il 2 aylıq işgəncələrdən sonra 1938-ci il oktyabrın 12-də güllələnib. Bir növ dostunun əli ilə taleyi qara yazılıb Məmmədkazımın.

Dövrünün ünlü simaları – Mikayıl Rəfili, Əhməd Cavad, Almas İldırım və başqalarının onun haqqında yazdıqları rəğbət dolu məqalələr şəhadət verir ki, bu adam dövrün "mübahisəli"lərindən çox, mübarizlərindən olub. Elə onun 1938-ci ildə güllələnməsi də bunu təsdiq edir.

Məmmədkazım Ələkbərlinin "qara siyahı"ya düşməsinin bir səbəbi də onun Azərbaycan yazıçılarının ilk qurultayında yazılı ədəbiyyat tariximizin çox qədimlərə gedib çıxmasına dair dedikləri ilə əlaqələndirilir. O deyib: "Əlimizdə olan faktlara əsaslanaraq deyə bilərəm ki, Azərbaycanın yazılı ədəbiyyatının banisi VIII əsrdə yaşayan şairə Zibeydə Xatundur. Zibeydə Xatunun azərbaycanlı olması və türk dilində şeirlər yazmasını sübut edən dəlil isə Hindistanın Bombey şəhərində işıq üzü görən "Ruzi Revşən" adlı kitabdır. Beləliklə, biz əlimizdə olan sübutlara əsaslanaraq, Azərbaycanın yazılı ədəbiyyatının VIII əsrə aid olduğunu təsdiq etdik".

Görkəmli alimin bu çıxışı 10 illərcə tam məxfi saxlanıb. Cənubi Qafqazda belə faktların üzə çıxarılması Stalin və Mikoyan kimi şovinistlərin milli mənliyinə toxunurdu, onlar Azərbaycanın üstünlüyünü həzm edə bilmirdilər. Buna cəsarət edənlərin aqibəti isə dəhşətli ölümlə sona çatırdı.

Beləliklə, milli tarix və ədəbiyyatını sevən görkəmli filosof-alim bolşeviklərin "qara siyahısı"na salındı və "NKVD"nin dəhşət saçan zindanında məhv edildi. Sovet quruluşunu vəsf edən əsərlər yazmaması və yazılarında türk sözləri işlətməsi də erməni-bolşevik cəlladlara dəstəvuz oldu. Onlar Ələkbərliyə "pantürkist", "əksinqilabçı", "xarici dövlətin casusu" və digər damğalar vuraraq həbsinə, sonra da məhvinə nail oldular. Dostu Bağırov da onu xilas edə bilmədi və ya istəmədi.

***Əli NƏCƏFXANLI***
***XQ***

# 100 yaşlı "Elm" nəşriyyatı elmin xidmətində

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin növbəti iclasında digər müzakirələrlə bərabər, "Elm" nəşriyyatının 2024-cü ilə dair hesabatı dinlənilib.**

Bu nəşriyyat bir əsrə qədərdir ki, fəaliyyət göstərir. 1997-ci ildən AMEA-nın redaksiya-nəşriyyat işləri "Elm" Redaksiya, Nəşriyyat və Poliqrafiya Mərkəzində cəmləşdirilib. Hazırda bu işləri AMEA Rəyasət Heyəti aparatının nəzdində "Elm" nəşriyyatı uğurla davam etdirir. Müəssisəyə vaxtilə akademik Ziya Bünyadov, Əjdər Xanbabayev, Faiq Məlikov, Şirindil Alışanov, Hafiz Abıyev və başqaları başçılıq ediblər. 2019-cu ildən nəşriyyatın direktoru filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanovdur.



Hesabatdan əvvəl AMEA-nın Humanitar Elmlər Bölməsinin (HEB), Naxçıvan Bölməsinin, Mərkəzi Elmi Kitabxanasının və "Elm" nəşriyyatının 2024-cü il üzrə əldə etdiyi nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub. İclası giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Akademik İsa Həbibbəyli bu il Rəyasət Heyətinin iclaslarında AMEA-nın elmi bölmə və regional mərkəzlərindən əlavə, ilk dəfə olaraq "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Mərkəzi Elmi Kitabxana, "Elm" nəşriyyatı və AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin də fəaliyyətlərinə dair hesabatlarının ictimaiyyətə təqdim olunduğunu bildirib.

"Elm" nəşriyyatının illik hesabatını təqdim edən Səbuhi Qəhrəmanov qeyd edib ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Elm" nəşriyyatında "Azərbaycanın bitki örtüyü" monoqrafiyası, "Azərbaycan ekologiyası" adlı biblioqrafik göstərici, "Qlobal ekoloji problemlər", "Ecoethics problems of Azerbaijan: scientific, legal, moral aspects" adlı kitabları, "Heydər Əliyev və müasir biologiya elminin inkişafı: nailiyyətlər və çağırışlar" mövzusunda beynəlxalq konfransın materialları və s. nəşr olunub.

Məhəmməd Füzulinin 530 illiyi ilə əlaqədar isə "Böyük Azərbaycan şairi Füzuli", "Füzuli sənətkarlığı", "Füzulinin ərəbcə poetik irsi" monoqrafiyaları, o cümlədən "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri işıq üzü görüb.

Bundan əlavə, "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından milli elmin inkişafında böyük xidmətləri olan AMEA-nın həqiqi və müxbir üzvlərinin biblioqrafik göstəriciləri çap olunub.

Çoxcildlik əsərlərdən isə "Qərbi Azərbaycan folkloru. III cild", "Cəmiyyətin sosial və mənəvi həyatındakı islahatların fəlsəfəsi (15–16 cild)" kitabları işıq üzü görüb.

Eyni zamanda "Kitabi-Dədə Qorqud" eposu: Heydər Əliyevdən – İlham Əliyevə", "Qasım Qasımzadənin yaradıcılıq yolu", "Nəzəri-tənqidi fikrin poetikası", "Mir Möhsün Nəvvab", "Tarix danışan binalar" monoqrafiyaları, "Kitabi Dədə Qorqud. Drezden, Vatikan və Günbəd nüsxələri", "Kərkükün milli tədqiqatçısı Əta Tərzibaşı" və s. nəşrlər hesabat ilində çap olunub.

Səbuhi Qəhrəmanov hesabat ilində Azərbaycan elmi cəmiyyəti üçün mühüm əhəmiyyəti olan, Web of Science, Scopus, Google Scholar, EBSCO, COPERNICUS, AGRIS, Asos index və b. beynəlxalq bazaların siyahısına daxil edilmiş "Azərbaycan Riyaziyyat Jurnalı", "Azərbaycan Kimya Jurnalı", "Filologiya və sənətşünaslıq", "Türkologiya", "Həyat elmləri və biotibb" və 10-a qədər digər elmi jurnalların da işıq üzü gördüyünü diqqətə çatdırıb.

Natiq "Elm" nəşriyyatının hesabat dövründə Bakıda keçirilən III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında, eləcə də X Bakı Beynəlxalq Kitab Sərgisində təmsil olunduğunu, müəssisə əməkdaşlarının il ərzində bir sıra tədbirlərdə təltif edildiklərini söyləyib.

Nəşriyyatın 2024-cü ildə beynəlxalq əməkdaşlıq üzrə də fəliyyətini davam etdirdiyini söyləyən direktor Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının kitab nəşri və kitab mədəniyyəti üzrə Elmi şurası, Avropa Elmi Redaktorlar Assosiasiyası, Nəşr Etikası Komitəsi (COPE), ABŞ-ın EBSCO məlumat bazası, o cümlədən AVES publishing, "Elsevier" nəşriyyatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirildiyini vurğulayıb.

Eyni zamanda, akademiya rəhbərliyinin nəşriyyata göstərdiyi diqqət sayəsində burada çap fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırıldığı, nəşriyyatın maddi-texniki bazasının təkmilləşdirildiyi bildirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Elm" nəşriyyatının ötən ildəki fəaliyyətini yüksək qiymətləndirib və müvafiq tapşırıqlarını verib. Onu da əlavə edək ki, Rəyasət Heyətinin iclasında müzakirəyə çıxarılan növbəti məsələlərdən biri də "Elm" nəşriyyatının 100 illik yubileyinin keçirilməsi haqqında idi. Qeyd edilib ki, 2025-ci ilin sentyabr ayında nəşriyyatın yaradılmasının 100 ili tamam olur.

***Ə.ƏLİYEV***
***XQ***

# Azərbaycan arxeologiyası beynəlxalq konfransda

**Bugünlərdə Şimali Makedoniyada "Kollektiv yaddaş, yaddaş siyasəti və müasir kimliklər yerli, regional və qlobal münaqişələr və ittifaqlar kontekstində" XIII beynəlxalq elmi-praktik konfransda Azərbaycan alimləri də fəal iştirak ediblər.**



Bu məclisin ölkəmiz üçün əlamətdarlığı bir də ondadır ki, Azərbaycanın "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Şimali Makedoniyanın Qabaqcıl Tədqiqatlar Mərkəzi, Türkiyənin Adnan Menderes Universiteti, Macarıstanın Qabaqcıl Tədqiqatlar İnstitutu ilə birgə təşkil etdiyi elmi məclis tanınmış azərbaycanlı arxeoloq alim, professor, tarix elmləri doktoru Qafar Cəbiyevin anadan olmasının 75 illiyinə həsr edilib. Konfransda müxtəlif qitələrdən 80-dək alim və tədqiqatçı mövzu ilə bağlı aktual məruzələrlə çıxış edib.

Açılış mərasimində elm və təşkilat komitəsinin sədri Rubin Zemon yerli, regional və qlobal münaqişələr və ittifaqlar kontekstində kollektiv yaddaş, yaddaş siyasəti və müasir kimliklər mövzusunda çıxışında Azərbaycan arxeoloqu Qafar Cəbiyevin axtarış və tapıntılarının dünya tarix elmi üçün də önəmli materiallar verdiyini vurğulayaraq onu 75 illik yubileyi münasibətilə iştirakçılar adından səmimi təbrik edib, soydaşımıza xatirə hədiyyəsi təqdim edib.

"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Professor Qafar Cəbiyev: tərcümeyi-halı və elmi nailiyyətləri" mövzusunda məruzə edib. Beynəlxalq məclisdə ölkəmizlə bağlı "Bakıda Bayırşəhər anlayışı və hamam mədəniyyəti", "Azərbaycanda Şəki rayonu Babaratma kənd qəbiristanlığında 2 qəbrin öyrənilməsində kollektiv yaddaşın elementləri" mövzularında məruzələr də dinlənilib.

Professor Qafar Cəbiyev isə "Makedoniyalı İsgəndəri Azərbaycanla birləşdirən tarixi yaddaşa dair bəzi etüdlər" mövzusunda konfransın fəxri məruzəsi ilə çıxış edib. Yubiliyar dünya fatehinə ikihissəli mənzum roman həsr etmiş dahi Nizami Gəncəvinin "İsgəndərnamə" kitabını konfransın keçirildiyi Ohrid şəhər bələdiyyəsinin sədr müavini Ana Krstevkaya hədiyyə edib.

***T.AYDINOĞLU***
***XQ***

# Antiterror əməliyyatı şəhidləri




**Yeniyetmə yazar Sevindik Nəsiboğlunun "Gənclik" nəşriyyatında çapdan çıxmış kitabı belə adlanır.**

Publisistik xronika üslubunda yazılmış kitabın redaktoru və ön söz müəllifi şair-publisist, Beynəlxalq Rəsul Rza mükafatı laureatı Əli Rza Xələfli, rəyçisi və son sözünün müəllifi isə fəlsəfə doktoru, yazıçı-publisist Şəddat Cəfərovdur.

Kitabda 2023-cü ilin sentyabrında Qarabağda keçirilmiş antiterror tədbirlərində şəhidl olan 216 nəfər qəhrəman vətən oğlunun haqqında materiallar yer alıb.

Müəllif hər bir şəhidin ömür yolunu izləyib, qəhrəmanlıqla dolu döyüş yollarını sadə və səmimi bir dillə yazıya gətirib. Onu da qeyd etmək lazımdır ki, kitab ensiklopedik xarakter daşıdığına görə hər zaman məlumat mənbəyi kimi istifadə olunacaq.

Sevindik Nəsiboğlunun "Suverenliyimizi təmin edənlər" kitabı şəhidlərin ailələrinə hədiyyə olunacaq.

***XQ***

# Qəhrəmanlıq yolunun şöhrət ünvanı

**Prezident İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda yaradılan Zəfər Muzeyi abidə-kompleksinin gələcək ekspozisiyası indidən kompleksləşdirilir və zənginləşdirilir.**



Qeyd edək ki, 2021-ci ilin yanvar ayından Zəfər Muzeyi üçün eksponatların toplanılması İstiqlal Muzeyinə həvalə olunub. Hazırda yeni muzey üçün 9255 eksponat toplanılıb. Muzeyin direktoru Sədi Mirseyiblinin dediyinə görə, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrindən, qazilərdən əşyaların toplanılması işi davam edir. Burada Vətən müharibəsi zamanı şəhid olmuş mülki şəxslərin də əşyaları toplanır.

Burada Polad Həşimova, Xudayar Yusifzadəyə, Rəşad Babayevə aid əşyalar artıq tam komplektləşdirilib.

Yeni muzeyin yaradılmasının başlıca amalı gələcək nəsillərdə güclü hərbi-vətənpərvərlik ruhunun aşılanmasına xidmət etməkdir.

***XQ***

# Avropa “sağ qalmaq” üçün silahlanmalıdırmı?

**“ABŞ-ın yeni administrasiyasının qərarlarından asılı olmayaraq, avropalılar qitənin təhlükəsizliyi üçün həmişəkindən daha böyük məsuliyyət daşıyırlar. Avropa İttifaqı (Aİ) təkcə müharibənin qarşısını almaq üçün pul xərcləməməli, həm də ona hazırlaşmalıdır. Çünki kəşfiyyat xidmətlərində Rusiyanın 3–5 ildən sonra mümkün təcavüzü barədə məlumatlar var”. Bu barədə Avropa mətbuatında tez-tez xəbərlər yayılır və qabaqlayıcı tədbirlərin görülməsi gündəmə gətirilir. Bəs Aİ ölkələri təhlükənin qarşısını almaq üçün nə kimi tədbirlər görür?**



ABŞ prezidenti Donald Tramp avropalılardan müdafiə xərclərini artırmağı tələb edir. Onun bu tələbi Aİ-nin nüfuzlu rəsmilərindən dəstək görür. Qurumun xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas və hazırda Aİ Şurasına sədrlik edən Polşanın Baş naziri Donald Tusk avropalıları öz təhlükəsizliklərinə daha çox sərmayə qoymağa çağırır.

Avropa Müdafiə Agentliyinin (EDA) illik konfransında Kaya Kallas, “prezident Tramp kifayət qədər xərcləmədiyimizi söyləyərkən haqlıdır” deyib. O qeyd edib ki, Aİ-yə üzv dövlətlər, özəl sektor və Aİ büdcəsi tərəfindən investisiyaların artırılmasına ehtiyac var: “Biz müdafiəmizə kifayət qədər sərmayə qoymuruq. Rusiya isə təhlükəsizliyimiz üçün təhdid yaradır. Zaman Rusiyanın tərəfində deyil, amma bizim tərəfimizdə də deyil, çünki biz hələ də müdafiəmiz üçün kifayət qədər iş görmürük. Heç kim müharibənin qarşısının alınmasına daha çox pul xərcləyəcəyimizə şübhə etməməlidir. Biz həm də ona hazırlaşmalıyıq... Amma Aİ-nin öz ordusuna ehtiyacı yoxdur, çünki NATO-nu təkrarlamaq səmərəsizdir”.

Kallas qeyd edib ki, Aİ-də öz hərbi büdcəsi olan 27 dövlətin ordusu var. Diplomatik xidmətin rəhbəri eyni zamanda vurğulayıb ki, qarşılıqlı fəaliyyət üçün bütün ölkələr müdafiə sektorunda əməkdaşlıq etməlidir. “Avropalılar oyanmalıdırlar”, deyən Kallasın sözlərinə görə, xərclərin artması müdafiəyə ÜDM-nin 9 faizini yönəldən Rusiya üçün “xəbərdarlıq” olmalıdır: “Rusiya 2028-ci ildə Aİ ölkələrindən birinə qarşı hərbi təcavüzə başlaya bilər. Bir çox milli kəşfiyyat xidmətlərimiz bizə Rusiyanın hazırlığımızı sınaqdan keçirə biləcəyi barədə xəbərdarlıq edirlər”.

Onun sözlərinə görə, Rusiya prezidenti Vladimir Putin “yalnız gücün dilində danışır”, “zəiflik isə onu təhrik edir”... İnsanlar deyirlər ki, mən Rusiyaya qarşı “quzğunam”. Amma düşünürəm ki, mən bu məsələdə sadəcə realistəm”.

Kallas təklif edib ki, Ukrayna Rusiya işğalından qorunarkən Avropaya vaxt qazandırır. Buna görə də, Aİ-nin prioriteti Kiyevə davamlı hərbi yardım göstərməsi olmalıdır: “Şübhə yoxdur ki, biz Ukraynaya daha çox kömək edə bilərik. Bizim köməyimizlə o, müharibədə qalib gələ bilər. Hazırda Rusiyaya qarşı 16-cı sanksiyalar paketinin üzərində iş aparılır. Aİ-nin bu ölkəyə hərbi yardımı 50 milyard avroya yaxındır. Bundan əlavə, bu ilin fevral ayının sonunadək, ümumilikdə, 75 min Ukrayna əsgər və zabiti Aİ ölkələrində təlim keçəcək”.

Strasburqda Avropa Parlamentində çıxış edən Donald Tusk da eyni fikirləri səsləndirib: “Avropa sağ qalmaq istəyirsə, silahlanmalıdır”. O, avropalıları üstün iqtisadi güclərindən istifadə etməyə çağırıb: “Biz dünya dövlətiyik, buna inanmalıyıq... Müharibə bizim seçimimiz deyil. Mən militarist deyiləm. Polşa müharibənin təkrarlanmasını istəməyən ölkədir. Biz Avropada hamıdan çox əziyyət çəkmişik. Buna görə də, faciəli hadisələrin təkrarlanmaması üçün güclü və qətiyyətli olmalıyıq”.

Rusiyanın Ukraynaya genişmiqyaslı hücumunu və Belarusla sərhəddəki miqrasiya böhranını xatırladan Tusk, Aİ ölkələrini təhlükəsizlik məsələlərinə ciddi yanaşmağa və hərbi xərcləri artırmaq üçün mənbələr tapmaqda çeviklik nümayiş etdirməyə çağırıb: “Bunun alternativi yoxdur. Avropa özünü müdafiə etməlidir və pullarını buna xərcləməlidir”, - Tusk vurğulayıb.

Polşanın baş naziri daha sonra Donald Trampın Ağ evə qayıtması ilə bağlı danışıb. Onun sözlərinə görə, hakimiyyət dəyişikliyi “rahatlıq dövrünün bitməsi” deməkdir. Bununla belə, o, ümidsiz olmamağa və Trampın çağırışlarını alyans üçün “müsbət çağırış” kimi qəbul etməyə çağırıb.

NATO-nun baş katibi Mark Rutte də avropalı müttəfiqləri qəti addımlar atmağa çağırıb. İyunda Haaqada keçiriləcək NATO-nun növbəti sammitində ÜDM-in 3-3,5 faizlik yeni hədəfi ətrafında qızğın müzakirələr gözlənilir.

Almaniyanın müdafiə naziri Boris Pistorius Litvaya səfəri zamanı “DW”yə müsahibəsində bildirib ki, ABŞ administrasiyasının qərarlarından asılı olmayaraq, avropalılar qitənin təhlükəsizliyi üçün həmişəkindən daha böyük məsuliyyət daşıyırlar. Onun sözlərinə görə, ABŞ-ın yeni administrasiyası çox güman ki, diqqətini Hind-Sakit okean regionuna yönəldəcək.

Müdafiə naziri Ukraynada müharibənin sona çatdırılmasına da münasibət bildirib. “İlk növbədə atəşkəsdən, sonra isə Ukrayna üçün davamlı sülhdən danışmalıyıq. Ukraynanın təhlükəsizlik zəmanətinə ehtiyacı var. Bu ssenari baş tutmasa, Rusiyanın “cəmi bir-iki ildən sonra” Ukraynaya təkrar hücum ehtimalı çox yüksəkdir. Avropanın “yaxın aylarda və illərdə” üzləşə biləcəyi məhz bu problemdir”.

Qeyd edək ki, Almaniya müdafiəyə daha çox pul xərcləyən ölkələrdən biridir. Məsələn, ötən il iyunun 3-də Almaniya parlamenti 5 il ərzində silahlı qüvvələrin əlavə maliyyələşdirilməsi üçün 100 milyard avroluq xüsusi fondun yaradılmasını təsdiqləyib. Hökumət bunu son bir neçə onillikdə görünməmiş qiymət artımları fonunda edib. Əlavə fond müdafiə büdcəsini (təxminən 50 milyard avroya yüksəlib) əvəz etmir. Onun vəsaiti silahlanma, texnika və mümkün müharibəyə təcili hazırlıq məqsədilə digər ehtiyacların maliyyələşdirməsində istifadə olunacaq.



Avropa Komissiyası isə növbəti 10 il ərzində əlavə müdafiə xərclərini 500 milyard avro həcmində qiymətləndirir, lakin vəsaitin haradan əldə ediləcəyi hələ bəlli deyil.

Xatırladaq ki, Tramp “avropalılar müdafiə xərclərini artırmasalar, ABŞ-ın NATO-nun kollektiv müdafiə sistemində iştirakını dayandıracağı ilə” hədələyib. O, müdafiə xərclərini ümumu daxili məhsulun (ÜDM) 5 faizi həcmində artırılmasını tələb edir. Halbuki NATO-nun hazırkı hədəfi 2 faizdir. İtaliya, İspaniya və Belçika kimi ölkələrdə bu xərclər aşağı həddə belə çatmır. Almaniya keçən il ilk dəfə müdafiə xərclərini 2 faizlik hədəfə çatdırıb. Böyük Britaniya hazırda ÜDM-in təxminən 2,3 faizini müdafiəyə xərcləyir.

***P.ƏFƏNDİYEV***
***XQ***

**Qardaş ədəbiyyatlar**

**İnsan dözümünün həddi-hüdudu yoxdur, o, həyatda qalmaqdan ötrü bütün əzablara, məşəqqətlərə tab gətirə bilir. Tanrı ona yenilməz güc bəxş edib. Tarix boyu davam edən repressiyalar, sürgünlər, soyqırımları insanların iradəsini qıra bilməyib, onları məğlub etməkdə aciz qalıb. Çox uzağa getməyək, ötən əsrin tarixi repressiyalarla, sürgünlərlə, deportasiyalarla zəngindir. Sovet Ukraynasında süni olaraq törədilən Qolodomor soyqırımı, Hirosima və Naqasaki qırğınları, 37-ci il repressiyası və elitanın, daha sonra bütöv xalqların Sibirə, Qazaxıstan çöllərinə sürgün edilməsi bəşəriyyətin tarixində sağalmayan yaralar kimi hələ də qövr edir.**

# Cəhənnəmdə sevgi və şəfqət

*“Züleyxa gözlərini açır” romanı tatar qadınının müdhiş həyat hekayətidir*

Bu günlərdə tatar yazıçısı Güzəl Yaxinanın “Züleyxa gözlərini açır” romanını oxudum. Son dərəcə ağır əsərdir və bu roman haqlı olaraq “insan dözümünün müdhiş hekayəsi” kimi dəyərləndirilir. Ən heyrət doğuran məqam isə bu əsərin bir qadın yazıçı tərəfindən yazılmasıdır. Deyə bilərsiniz ki, burada təəccüblü nə var? Dünya ədəbiyyatında, eləcə də Azərbaycan ədəbiyyatında kifayət qədər qüdrətli qadın yazıçıları var. Sözsüz, bu, belədir, amma Güzəl Yaxinanın yazdığı əsər tatar xalqının sovet kommunist rejimi tərəfindən amansızlıqla əzilməsini təsvir edir, imperiyanın mahiyyətini, xislətini açıb ortaya qoyur. Qolçomaq ovuna çıxmış bolşeviklər əyalətlərdə sadə insanları sorğu-sualsız güllələyirlər, öz təsərrüfatını yaradaraq ailəsini dolandıran zəhmət adamlarına qarşı vəhşicəsinə davranırlar, onların bütün var-yoxunu əlindən alıb özlərini ucsuz-bucaqsız səhralara sürgün edirlər. Dustaqlar aylarla ac-susuz vəziyyətdə qatarla naməlum istiqamətə aparılır, yol boyu davam edən şəraitsizlik onların içindəki heyvani instinktləri oyadır və qeyri-insani situasiya bütün mənəvi dəyərləri yerlə-yeksan edir.



Yazıçısı Lyudmila Ulitskaya romana yazdığı “Cəhənnəmdə sevgi və şəfqət” adlı ön sözdə vurğulayır: “Züleyxa gözlərini açır” romanı möhtəşəm debütdür. Bu əsər ədəbiyyatın ən başlıca məqsədinə - ürəyə toxunmaq keyfiyyətinə malikdir. Baş qəhrəman, qolçomaq təsərrüfatının ləğv edilməsi dövründə yaşamış tatar qadını Züleyxanın taleyindən bəhs edən bu hekayə son illərin müasir nəsr axınında nadir rast gəlinən dərinliyə, səhihliyə, ülviliyə və cazibədarlığa sahibdir”.

Züleyxa ərləri güllələnmiş, sürgün edilmiş tatar qadınlarının ümumiləşdirilmiş obrazıdır. 1930-cu ilin qışında gözdən-qulaqdan uzaq bir tatar kəndində baş verən hadisələr oxucunu sürətlə inqilabın içinə sürükləyir. 15 yaşından zalım, kor qayınanası və özündən yaşca xeyli böyük olan əriylə birlikdə yaşayan Züleyxa olmazın zülmlərlə üzləşir. İnqilab baş verir və ucqar bölgələri nəzarətə götürən sovet əsgərləri onun ərini güllələyirlər, özünü isə uzaq Sibirə sürgün edirlər.

Yolda xəstələr, zəiflər canını tapşırır və onları ucsuz-bucaqsız çöllükdə xəndəyə quylayırlar. Meyitlərin atıldığı xəndək açıq qalır və quzğunlar gəlib onları parçalayır. Səhifələri çevirdikcə həyəcan dalğası səngimir, yazıçının amansız təsvirləri ürəyə xəncər kimi saplanır.

Yazıçı sərt həqiqətləri bütün çılpaqlığı ilə rəhmsizcəsinə oxucunun gözləri önünə sərir. Qoy dünya bilsin ki, tatar xalqı dişli repressiya maşınının çarxları altında beləcə əzilib, amma onu məhv edə bilməyiblər. Tatar xalqının Musa Cəlil, Abdulla Əliş kimi döyüşkən, mübariz oğulları xalqın milli ruhunun ifadəçisi idilər.

**Dibindən kəsərəm biləklərini,**
**Düşmən əl uzatsa azadlığıma.**
**Onun dırnağı da toxuna bilməz**
**Ana Vətənimə, doğma xalqıma**

Musa Cəlil edam ərəfəsində belə yazırdı. Onun başını bədənindən ayırdılar, amma hər şeiri yüz minlərlə tatarın dilində əzbər oldu və “Moabit dəftəri” şairi ölümündən sonra da yaşatdı, onun danışan dili oldu.

Güzəl Yaxina da öz xalqının azadlıq dastanını yanar ürəklə qələmə alıb. Bu roman dünyanın 30-dan çox dilinə tərcümə edilib, Rusiyanın ən nüfuzlu “Böyük kitab” mükafatını qazanıb. Sovet tarixinin qaranlıq məqamlarını əks etdirən çox kitablar yazılıb. “Züleyxa gözlərini açır” romanı isə bir xalqın faciəsini əks etdirməklə yanaşı qadın dözümünə, qadın iradəsinə abidə ucaldır. Züleyxa dini dəyərlərin, mental düşüncənin dominant olduğu mühitdə böyüyüb. Lakin anasının vaxtilə ona aşıladığı qaydalar, mövhumi qadağalar düşdüyü şərait nəticəsində mahiyyətini itirir, dağılır, məhv olur.

O, əri Murtuzaya kor-koranə itaət edirdi, kor və zalım qayınana hər gün ona qarğış tökürdü, ağır fiziki əmək onun qadın təravətini soldururdu. Züleyxa əri üçün 4 qız doğur, lakin bu qızların hamısı körpə ikən ölür. Bolşeviklər ailənin Murtuzanın varidatını əlindən almağa gələndə, əri buğda kisələrini aparıb qızının qəbrində gizlədir. Yazıçı bu səhnələri yüksək vizual təhkiyə ilə qələmə alıb və mütaliə prosesində oxucu birbaşa o hadisələrin sanki iştirakçısına çevrilir.

Komendant İqnatov onun ərini gözünün qabağında güllələyib, lakin əsir aparıldıqları müddətdə daim Züleyxanı qoruyur, dustaqlar qatardan enib gəmiyə mindirildikdən sonra gəmi dustaqlarla birgə sularda qərq olur, bu zaman komendant hamilə Züleyxanın həyatını xilas edir. Köçkünlərin yerləşdiyi sahil qəsəbəsində məskunlaşdıqdan sonra Züleyxa Murtuzadan olan oğlu Yusifi dünyaya gətirir.

Züleyxa hər an, hər dəqiqə Yusifin də o biri övladları kimi tez öləcəyi qorxusu ilə yaşayır. Lakin Yusif yaşayır. İqnatov bu ötkəm tatar qadınının iradəsini qırıb onu yatağına salanda Yusif diqqətdən kənarda qalıb meşədə qar uçqununa düşür. Züleyxa bunu Tanrının cəzası kimi qəbul edir. Ərinin qatili ilə nikahsız yatağa girməyin cəzası. Lakin bu dəfə də möcüzə baş verir; gecənin qaranlığında qarın içiylə dəli kimi meşəyə cuman Züleyxa qurd kimi ulayıb övladını haraylayır. Meşədə ac canavarların əhatəsinə düşür, çiynindəki tüfənglə canavarları öldürüb Yusifini xilas edir. Analıq hissi qorxunu dəf edir. Yazıçı qadının nə qədər böyük və müəzzəm bir qüvvə olduğunu əyani şəkildə göstərir. Deməli, Tanrı nəzərini onun üzərindən çəkməyibmiş. Yusif yaşayacaqdı. İşıqlı gələcək Yusifi gözləyirdi. Yusif Züleyxanın xilası idi.

Tatar yazıçısı Güzəl Yaxina müasir dövrün “Yusif və Züleyxa”sını yazıb. Heç şübhəsiz ki, romanın ideyası, mükəmməl üslub və süjet xətti, hadisələrin sənətkarlıqla bədii həllini tapması onu bitkin bir mətnə çevirir və bu nöqteyi-nəzərdən “Züleyxa gözlərini açır” Əbdürrəhman Caminin “Yusif və Züleyxa”sı kimi əbədi oxunan əsərlərdən olacaq.

**P.S.** Artıq 20-dən çox dillərə tərcümə edilən roman, çap olunduğu il müəllifə “İlin kitabı”, “Yasnaya Polyana”, “Bolşaya kniqa” kimi nüfuzlu mükafatlar qazandırıb. Romanın motivləri əsasında çoxseriyalı bədii filmi çəkilib. Ekran əsərinin rejissoru Yeqor Anaşkin, baş rol ifaçısı isə Çulpan Xamatovadır.

***Kənan HACI,***
***yazıçı-publisist***

**Yaşıl adalar**

**Zəngəzur Milli Parkı 2003-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun inzibati ərazisində yaradılmışdır. Park təşkil olunan zaman onun sahəsi cəmi 12 min 131 hektar idi. Parkın ərazisi tədricən Şahbuz, Culfa, Ordubad rayonlarının yaşıllıqları hesabına genişləndirilərək 42 min 797 hektara çatdırılmışdır.**

# Ordubadın Zəngəzur dünyası



Zəngəzur Milli Parkı Azərbaycan təbiətinin dərin bilicisi və vurğunu akademik Həsən Əliyevin adını daşıyır. Sadə, səmimi və mehriban insan kimi şöhrət qazanan görkəmli alim Azərbaycan təbiətinin yaxın dostu olmuşdur. O, bölgələrimizi qarış-qarış gəzərək, ölkəmizin zəngin flora və faunasının qorunub saxlanılması üçün böyük əmək sərf etmişdir

Qeyd etmək lazımdır ki, Zəngəzur Milli Parkının ərazisinin 27 min 870 hektarında Ordubad Dövlət Təbiət Yasaqlığı yerləşir. Orta hündürlüyü 3 min 200 metrə çatan Zəngəzur silsiləsi Kiçik Qafqazın bütün silsilələrindən yüksəkdir. Ən yüksək zirvəsi isə 3 min 906 mətrə çatan Gəmiqayadır.

Bu, eyni zamanda Kiçik Qafqazın ölkəmizin ərazisində ən yüksək zirvəsidir. Zəngəzur silsiləsinin sonuncu, üçüncü hissəsi Soyuqdağdır ki, o da Zəngəzur Milli Parkının ərazisinə daxildir. Bu zirvələr hətta yay aylarında belə bəyaz qarla örtülü olur. Milli Parkın ərazisinin çox hissəsi dağlıqdır. Yayı quraq keçən soyuq iqlimi var. Burada boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli, dağ-çəmən torpaqlar geniş yayılmışdır.

Parkın su şəbəkəsini əsasən ərazidən axan çaylar təşkil edir. Ərazidəki çaylardan Gilançay, Düylünçay, Vənəndçay, Əylisçay, Ordubadçay, Gənzəçay, Kotançay, Kilitçay öz mənbələrini bulaqlardan, yağış və qar sularından götürür. Başlanğıcını Göygöldən götürən Sağarsu çayı Gilançaya tökülür.

Naxçıvan Muxtar Respublikası ərazisində 38 növ və yarımnöv sürünənlər mövcuddur. Bunlardan 5 növ tısbağa, 12 növ və yarımnöv ilanlara rast gəlmək olar. Xəzər tısbağası, Aralıq dənizi tısbağası, yovşanlıq girdaban kərtənkələsi, Kiçik Asiya gürzəsi, Kiçik Asiya kərtənkələsi, Zaqafqaziya təlxəyi, ox ilanı “Qırmız Kitab”a salınmışdır.

Ərazidə 217 növ və yarımnöv quşa rast gəlinir ki, bunlardan 15 növü “Qırmızı Kitab”a daxil edilmişdir. Naxçıvan Muxtar Respublikasında 62-yə qədər məməli heyvan növünə və ya yarımnövünə təsadüf edilir.

Bunlardan 32 növ və ya yarımnövə Zəngəzur Milli Parkının və Ordubad Dövlət Təbiət Yasaqlığının ərazisində rast gəlinir. Milli Parkın ərazisində canavar, çaqqal, adi tülkü, zolaqlı kaftar, daşlıq dələsi, porsuq, meşə pişiyi və s. rast gəlmək mümkündür.

Zəngəzur Milli Parkının və Ordubad Dövlət Təbiət Yasaqlığının ərazisi ali və nadir bitkilərə görə də zəngindir. Belə ki, Muxtar Respublika ərazisində bitən 110 növ ali və nadir bitkidən 77 növü Milli Parkın və Yasaqlığın ərazisində mövcuddur.

Sonda qeyd etmək lazımdır ki, Ordubadın meyvə bağları, dağ bulaqları, kəhrizləri və gül-çiçəkli aurası tarixən səyyahların diqqətini cəlb edib. Məsələn məşhur fransız etnoqraf İ.İ.Şopen 1862-ci ildə Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə və coğrafiyasına həsr etdiyi əsərində əla meyvələri – üzümü, əriyi, şaftalısı, albuxarası, heyvası olan Ordubad bağlarının Qafqazda, hətta Şərqdə şöhrət tapdığı barədə yazıb.

Səyyah həmçinin bu yerlərin sağlam iqlimi haqqında məlumat verib: “Dağlarla əhatə olunmuş Ordubad al-əlvandır, sağlam iqlimə malikdir, şəhər sudan boldur. Burada çaydan başqa, bütün bağları və evləri su ilə əsasən təmin edən 70-ə qədər bulaq var. Ordubadı, mübaliğəsiz, bütün Qafqazın ən şairanə, ən dilbər guşələrindən biri adlandırmaq olar”.

***M.HACIXANLI***
***XQ***

AZƏRBAYCAN RESPUBLİKASI
ƏDLİYYƏ NAZİRLİYİNİN
**ƏDLİYYƏ AKADEMİYASI**
*aşağıdakı vəzifələri tutmaq üçün*
MÜSABIQƏ ELAN EDİR

| № | Kafedraların adları | Vəzifələrin adları (ştat vahidi ilə) |
|---|---|---|
| 1 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrası | kafedra müdiri-1 ştat |
| 2 | Konstitusiya və inzibati hüquq kafedrası | müəllim – 0,5 ştat |
| 3 | Cinayət və cəza-icra hüququ, kriminologiya kafedrası | baş müəllim-1 ştat |
| 4 | Cinayət və cəza-icra hüququ, kriminologiya kafedrası | müəllim-1 ştat |
| 5. | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrası | müəllim – 0,5 ştat |
| 6 | Mülki hüquq və mülki proses kafedrası | baş müəllim– 0,5 ştat |
| 7 | Mülki hüquq və mülki proses kafedrası | baş müəllim– 0,5 ştat |
| 8 | Mülki hüquq və mülki proses kafedrası | müəllim– 0,5 ştat |
| 9 | Mülki hüquq və mülki proses kafedrası | müəllim – 0,5 ştat |

**Qeyd – Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində qəbul edilir. Təqdim olunması nəzərdə tutulan sənədlərin siyahısı barədə aşağıda qeyd olunmuş əlaqə telefonu vasitəsilə ilə məlumat almaq mümkündür. Müsabiqədə iştirak etmək istəyənlər həmin sənədləri mövcud əsasnaməyə uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər:**

**Telefon – (994 12) 498- 09- 83.**

**Ünvan – AZ1000, Bakı şəhəri, Vidadi küçəsi 158.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 15 (30709) 24 yanvar 2025-ci il, cümə

# İdmanın “şah”ı: Sürət, çeviklik, güc

## Balacaların atletika dünyası genişlənir

**İdmanın “şahı” adlandırılan, özündə qaçış növlərini, idman yerişini, tullanmaları, atmaları, coxnövçülük və krossu birləşdirən atletika uşaqlar üçün bir çox üstünlüklər yaradır. Dözümlülüyü, reaksiya sürətini inkişaf etdirən, immunitet sistemini gücləndirən və düzgün fiziki inkişafa kömək edən bu idman növünün faydalarını sadalamaqla qurtarmaz. Yetər ki, uşaqları atletikaya istiqamətləndirib, onların məşqləri üçün imkan yaradaq.**

Bakının Nərimanov rayonunda, metronun “Gənclik” stansiyasının yaxınlığında yerləşən “Bakı Atletika Mərkəzi”nin atletika manejində məşqçi Anar Yusifovun rəhbərliyi altında kiçik yaş qrupundan ibarət uşaqların saatyarımlıq məşqini izlədikcə düşünürük ki, bu idman növü sanki elə onların özləri tərəfindən icad edilib. Atletika “dünyasına” daxil olan balacaların yerinə yetirdikləri bu hərəkətlər çox sadə görünsə də, böyüyən bədən üçün olduqca faydalıdır.



Kiçik yaş qrupunda məşqlərə 5 yaşdan tutmuş 14 yaşadək uşaqlar qatılıb. Hazırlıqdan əvvəl tanış olduğumuz 5 yaşlı Musa Məmmədli, Fərhad Qurbanov, 6 yaşlı Cihan Heybətov, Umeyra Quliyeva, Yelizaveta Pasenko nəinki komanda yoldaşlarından geri qalmır, hətta çevik hərəkətləri ilə onları qabaqlamağa səy göstərirlər. Bu, onların atletik hərəkətlərə sevgisindən irəli gəlir. Əslində, heç düşünmürük ki, atletikanı sevməyən uşaq ola bilər. Sadəcə, bir çox valideynin dili ilə desək, uşağı məşqə gətirmək üçün vaxt və həvəs lazımdır.

**8 yaşlı Ümid İbrahimlinin atası Kamran müəllim oğlunun hazırlığını diqqətlə izləyir. Deyir ki, məşqləri bir gün belə olsun buraxmırlar:**

–Oğlum məşqlərlə yanaşı, dərslərinə də diqqət yetirir. Həftədə 4 dəfə, bəzən 5 dəfə məşqə gəlirik. Şənbə günləri tezdən durub, zala tələsir. Ümid artıq yarışlarda iştirak edir. Heydər Əliyevin 100 illiyinə həsr olunmuş turnirdə 2016-2018-ci il təvəllüdlü uşaqlar arasında 600 metr məsafəyə qaçışda qalib olub. 2012-2015-ci il təvəllüdlü uşaqlar arasında 800 metr məsafəyə qaçışda isə 3-cü yeri tutub. İstərdim ki, hazırlığını davam etdirib idmançı olsun.

Öyrənirik ki, pis hava şəraiti, yaxud tıxaclar Ümidin davamiyyətinə təsir etmir. Bəzən isə hazırlığa Mərdəkandan gəlməli olurlar.

İsinmə hərəkətlərindən sonra məşqlərə başlayan atletlərin, həm də qısa məsafələrə qaçışını, eləcə də qaçaraq tullanma yarışını da izləyirik. Kim deyirsə, məşq zamanı uşaq enerji itirir, bununla razılaşmıram. İdman çoxlu müsbət emosiyalar verir, uşaqları daha güclü, çevik edir. Balaca dostlarımızdan 10 yaşlı Yusif Şirinlinin hərəkətləri diqqətimizi çəkir. Təxminən 70 kiloqram çəkiyə malik atletin göstərdiyi səylər, çəldliyi, dözümlülüyü bizi heyran edir. Onun məşqdən qabaq söylədiyi fikirləri xatırlayırıq:

– İndi özümdə artıq çəkini o qədər də hiss etmirəm. Əvvəlkitək məşqlərdə əziyyət çəkmirəm. İlk günlər tez yorulurdum. Cəmi 2 dairə qaça bilirdim. Artıq 5 dairə qaçıram.

Kim bilir, bəlkə elə Yusif dünyanın ən sürətli atleti olacaq. Təqdirəlayiq haldır ki, qrupda bir ailədən gələn uşaqların da sayı çoxdur. Məryəm, Hüseyn Hüseynzadələr, Ömər, Akif Əskərovlar və başqaları idmançı ailəsi kimi alqışlanmalıdır. Məşq sona çatmaqdadır. Yorulmaq bilməyən uşaqlar daha şən və xoşbəxt görünürlər.

**Onlarla söhbət edib, fikirlərini dinləyirik.**

**12 yaşlı İnci Səlimova** artıq 8 yaşdan yarışlarda iştirak edir. Düşünür ki, qaçış üzrə yaxşı nəticələr əldə edə bilər. Bunun üçün fasiləsiz məşqləri davam etdirmək vacibdir. İstəyir ki, qızlar da oğlanlar kimi fəal şəkildə idmanla məşğul olsunlar. Ən böyük arzusu beynəlxalq yarışlarda böyük nailiyyətlər qazanmaqdır.



**Ümid İbrahimli** 70 nömrəli məktəbin 3-cü sinfində təhsil alır. İdman dərslərinə, dərsləri isə idmana mane olmur. Bildirir ki, onda qısa məsafəyə qaçış onda daha yaxşı alınır. **Sənan Ələkbərli** artıq 2 ildir ki, məşqləri fasiləsiz davam etdirir. Bacısı Damla da onunla birgə atletikanın sirlərini öyrənir. **Miloş Milobabiçin** 12 yaşı var. Artıq 3 ildir ki, atletika ilə məşğul olur. Yarışlarda çoxlu medallar qazanıb. Serbiyada keçirilmiş beynəlxalq turnirdə 60 metr məsafə üzrə 1-ci, 50 metr məsafə üzrə 2-ci yeri tutub.

Qrupda oğlanlara nisbətən, qızlar xeyli azlıq təşkil etsələr də, məşqçilərdən birinin zərif cinsin nümayəndəsi olmasını yaxşı hal kimi qiymətləndirmək olar. Məşq zamanı balacalara mehribanlıqla yanaşıb, yerinə yetirəcəkləri hərəkətləri izah edən Fatimə Həsənova ilə də həmsöhbət oluruq. Öyrənirik ki, son 3 ildə məşqçilik fəaliyyəti ilə məşğul olur. Bakı, Azərbaycan çempionatlarının qalib və mükafatçısıdır:

– Qrupda potensiallı uşaqlar çoxdur. Onlar qısa, uzun məsafələrə qaçış, qaçaraq tullanma və digər növlərdə hazırlıqlarını artırırlar. Təəssüf ki, digər idman növlərində olduğu kimi, atletikada da qızların sayı azdır. Elə qrupumuzda da vəziyyət bu cürdür.



Fatimənin sözlərinə onu əlavə edək ki, qızlarımızın idmanla məşğul olmasında ümumi passivlik müşahidə edilir. Bir çoxu zərif cinsin nümayəndələrinin döyüş növləri ilə məşğul olmasına qarşı çıxır. Bunu da onunla izah edirlər ki, qızlar o zaman kobudlaşırlar. Yaxşı, bəs atletikada qızların sayı niyə azdır? Onlara atletik hərəkətlər etmək olmazmı? Düşünürəm ki, bu, birbaşa valideynlərin düşüncələri və məsuliyyətləri ilə bağlı məsələdir. Görünür, bir çoxları qızları idmana gətirmək üçün vəsait və vaxt sərf etmək istəmirlər. Amma zərif cinsin nümayəndələrinin idmanla məşğul olması nəinki özlərinin, həm də həyat verəcəkləri gələcək nəslin sağlamlığı deməkdir. Digər tərəfdən əlavə fəaliyyətlə məşğul olmaqla, özləri üçün gələcəkdə iş yerləri də təmin etmiş olurlar.

**Atletika ilə böyük həvəslə məşğul olan qızlardan biri – İncinin atası Amir Səlimovla söhbət edirik. Deyir ki, qızında atletikaya marağı görüb, onu məşqlərə gətirib:**

– Sürətlə qaçırdı, hətta oğlanlar ona çata bilmirdilər. Onu özüm məşqə gətirirəm. Bəzən işim çıxanda babası kömək edir. İncinin qardaşı da kiçik yaşlarından idmanla məşğul olub, cüdoya həvəs göstərib. 14 yaşı var. Hazırda daha çox təhsilinə diqqət yetirir. İndi bəzən İncini özü məşqə gətirir. Qızım 2013-cü il təvəllüdlü olsa da, 2010-2011-ci il təvəllüldlü uşaqlar arasında qısa məsafə üzrə artıq yaxşı nəticələri var. 60 və 100 metr məsafələr üzrə qalib və mükafatçı olub. Gələcəkdə seçim özünündür. Potensialı var və onu inkişaf etdirmək üçün imkanlar yaradırıq.

**Məşqdən sonra bir qədər yorğun görünən Anar Yusifov əli ilə zalı göstərərək deyir:**

– Burada uşaqların atletikanın sirlərinə yiyələnmələri üçün hər bir şərait var. Tez-tez orta məktəblərdə də olur, uşaqları məşqlərə dəvət edirik. Bu işdə məktəblər də bizə kömək etməlidirlər. Uşaqları kiçik yaşlardan hazırlayırıq. 14-15 yaşdan sonra hansı növə uyğundurlarsa, o növdə də məşğul olmağa davam edirlər. Komandamızın üzvlərindən U-16, U-18 Azərbaycan çempionatlarında birinciliklərində mükafatçılar var. Fevralın 8-də Bolqarıstanın Sofiya şəhərində keçiriləcək Balkan çempionatında 2 idmançımız Nihad Tağıyev, İsgəndər Əsgərov 400 və 800 metr məsafələr üzrə qaçışda güclərini sınayacaqlar. Yığmanın digər üzvləri də bizi o yarışda təmsil edəcəklər.

**Atletika tariximizdə o qədər də böyük nailiyyətlər əldə edilməsə də, Nazim Babayev kimi Avropa çempionatının qalibi olan idmançımız var. Deməli, istəsək, dünya, Olimpiya çempionları da yetişdirə bilərik. Geniş imkanlara malik bu manejdə gələcəyin dünya şöhrətli atletlərinin ərsəyə gəlməsi ümidi ilə zaldan ayrılırıq.**

*Leyla QURBANOVA,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

## Qadın döyüşçümüzün MMA qələbəsi

**Azərbaycanın MMA döyüşçüsü Zümrüd Quliyeva Qazaxıstanda uğurla çıxış edib.**



ASED AFC-ni və “Simral” klubunu təmsil edən 18 yaşlı idmançı “Octagon-69”-da yerli idmançı Rusalina Mulikova ilə üz-üzə gəlib. 52,2 kiloqram çəkidə keçirilən görüş artıq ilk raundda başa çatıb. Zümrüd rəqibini boğucu fəndlə məğlub edib.

İdmançımız “Xalq qəzeti”nə açıqlamasında növbəti döyüşünü Gürcüstanda keçirəcəyini dedi: “Fevralın 15-də Gürcüstanda GFC turnirində döyüşəcəyəm. Rəqibim yerli idmançı Mariam Nanava olacaq. Onu məğlub etmək üçün öz üzərimdə səylə çalışıram”.

## “Atilla”çıların 4 cüdo medalı

**“Atilla” klubunun cüdoçuları Qazaxıstanın Aktau şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edərək 4 medal qazanıblar.**



Yeniyetmələrin yarışında Rəsul Məlikzadə (34 kq) və Zakir Vəliyev (55 kq) qalib adını qazanıblar. 38 kq çəki dərəcəsində Aşqın Əlizadə gümüş, Nəbi Heydərzadə isə bürünc mükafata sahib olublar.

*L.AZAD*
*XQ*

## Hava



## Aranda yağmursuz və dumanlı, dağlarda yağış və qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var.

Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 0-5° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ 24 Saylı Nizami 1 Seçki Dairəsinin 36 saylı MnSK-ya məxsus möhür itdiyi üçün etibarsız sayılır.*

*✓ “Amalfilm Production” MMC şirkətinə məxsus nizamnamə və şəhadətnamə itdiyi üçün etibarsız sayılır. VÖEN – 1402652951.*

## Sağlamlıq

## Yüngül yemək – şirin yuxu

**Bəzən insanlar yuxudan durarkən süst olur, yataqdan qalxmaq istəmir, özlərində ağırlıq hiss edirlər. Bunun əsas səbəbi axşam yatmazdan əvvəl yağlı, çox və kalorili qida yeməyimizdir. Bəs şam yeməyi nə vaxt yeyilməlidir? Həmin vaxt hansı qidalardan uzaq durmaq lazımdır?**

Qastroenteroloqların fikrincə, axşam saatlarında çox yağlı, qızardılmış qidalardan, un məmulatlarından, şirniyyatdan, turşuya qoyulan, hisə verilən məhsullardan, qazlı və spirtli içkilərdən uzaq durmaq lazımdır.



Çünki sadalanan qidalar gec həzm olunur, qida dəyəri aşağı, lakin kalorisi çox olduğu üçün orqanizmi lazımi qida maddələri, vitaminlər, zülallar, minerallar və enerji ilə təmin edə bilmədiyinə görə, müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Gecəboyu istirahət etməli olan orqanlar çalışıb əlavə enerji sərf etdiklərindən insan yorğun, halsız oyanır.

Düzgün bişirilmə qaydalarına riayət olunmayan qidalar nəinki həzm sistemində ciddi problemlərə yol açır, eyni zamanda, şəkərli diabetə, hipertoniya xəstəliyinə, böyrək patologiyalarına, su-duz mübadiləsinin pozulmasına da səbəb ola bilər. Buna görə də şam yeməyində yüngül yeməklərə üstünlük vermək tövsiyə olunur.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin bədii komissiya rəhbəri

**İLHAM ALIŞANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov “Azərsun Holdinq”in prezidenti

**ABDOLBARİ GOZALIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Vilayət Zahirova və Elşən Zahirliyə ataları

**HƏSƏN ZAHİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

BDU-nun psixologiya kafedrasının əməkdaşları, iş yoldaşları Aytən Alışanlıya atası əməkdar jurnalist

**İLHAM ALIŞANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “Maliyyə və audit” kafedrasının müdiri, professor Əvəz Ələkbərov “Azərsun Holdinq”in prezidenti

**ABDOLBARİ GOZALIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov “Azərbaycan Hava Yolları” QSC-nin sabiq prezidenti Cahangir Əsgərova həyat yoldaşı

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “Maliyyə və audit” kafedrasının müdiri, professor Əvəz Ələkbərov Cahangir Əsgərova həyat yoldaşı

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2977
SİFARİŞ 141
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00